**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN HÜQUQİ TƏMİNATI MƏSƏLƏLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Hüseynli Tale Hüseyn oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**"____" ________________ 20__-ci il**

# "AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN HÜQUQİ TƏMİNATI MƏSƏLƏLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 İqtisadiyyat**
**İxtisaslaşma: İqtisadiyyatın hüquqi tənzimlənməsi**
**Qrup: 34**

**Magistrant:**
**Hüseynli Tale Hüseyn oğlu**

**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. İsayev Söhrab Zülfüqar oğlu**

**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________imza**

**BAKI – 2021**

## Elm andı

Mən, Hüseynli Tale Hüseyn oğlu and içirəm ki, "Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin hüquqi təminatı məsələləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN HÜQUQİ TƏMİNATI MƏSƏLƏLƏRİ**


**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Müasir dövrümüz üçün xas olan dünya ölkələrinin təsərrüfatının bütünləşdiyi bir şəraitdə hər hansısa bir ölkə başlıca olaraq, davamlı inkişafının təminatını vermək üçün mütləq şəkildə digər ölkələrlə olan xarici iqtisadi bağlantılarının genişləndirməlidir.**

**Tədqiqatın məqsədi: Magistr dissertasiyasının əsas məqsədi müasir dövrümüz üçün xas olan AR-nın davamlı şəkildə iqtisadi inkişafının təmin edilməsi vəziyyətində iqtisadi təhlükəsizliyin müdafiə edilməsi şərtləriylə, iqtisadi təhlükəsizlik sahəsində dövlətin tədbirləri planının yerinə yetirilməsi istiqamətində təklifləri qarşıya qoymaqdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya işinin əsas tədqiq metodları aşağıda qeyd edilənlərdir.Müqayisə, elmi-təhlil, qruplaşdırma, sintez və digər metodlar geiniş şəkildə tətbiq edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiq zamanı əsasan Dövlət Statistika Komitəsinin, Dünya Bankının göstəricilərindən, İqtisadiyyat Nazirliyinin göstəricilərindən və digər elmi mənbələrdən istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Azərbaycan Respublikasının iqtisadiyyatının hüquqi tənzimlənməsi sahəsindəki qanun və sərəncamların əsas prinsipi rəqabətqabiliyyətliliyinin artırılmasından, ölkə iqtisadiyyatının göstəricilərinin artımından, inkişafından və digər qayda qanun, qaydalardan ibarətdir. Ölkəmizdə olan iqtisadi təhlükəsizliyin təminatı üçün əsas məhdudiyyətlərdən biri də COVİD-19 pandemiyasıdır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi iqtisadi təhlükəsizliyin hüquqi cəhətlərinin sistemli şəkildə araşdırılması və məsələnin həllinin vahid sistem əsasında təmin edilməsi kimi xarakterizə edilir. Həmçinin, iqtisadi təhlükəsizliyə təhdid yaradan məsələlərin həlli yolunun sistemli şəkildə aradan qaldırılması və iqtisadi təhlükəsizliyə təhdidlərin hüquqi cəhətlərinin analiz edilib ortaya çıxarılmasından ibarətdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Təqiqatımız nəticəsində bu nəticəni qeyd edə bilərik ki, iqtisadi təhlükəsizliyin tətbiq edildiyi sahələr dedikdə bir çox sahələri qeyd edə bilərik. Siyasi, iqtisadi ,hüquqi, mədəni, sosial və digər sahələri qeyd edə bilərik.**



***Açar sözlər: iqtisadi təhlükəsizlik, dövlət siyasəti, hərtərəfli inkişaf, qanunvericilik***

## ISSUES OF LEGAL PROVİSİON OF ECONOMIC SECURITY IN THE REPUBLIC OF AZERBAIJAN


### SUMMARY

**The actuality of the subject: The basis of the investigation is investigated analysis of the issues of a legal security of the economic safety. In the context of the integration of the economies of the world, which is typical of our time, any country must expand its foreign economic relations with other countries**

**Purpose and tasks of the research: The main purpose of the master's dissertation is to put forward proposals for the implementation of the state action plan in the field of economic security, with the conditions of protection of economic security in the conditions of sustainable economic development of the AR**

**Used research methods: The main research methods of the dissertation are the following methods: comparison, scientific analysis and other methods are widely used.**

**The information base of the research: The study used data from the State Statistics Committee, the World Bank, the Ministry of Economy and other scientific sources.**

**Restrictions of research: The main direction of laws and regulations in the field of legal adjustment of the economy of the Republic of Azerbaijan consists of improving competitiveness, economic growth, innovation and other rules and regulations.**

**The novelty and practical results of investigation: The economic growth of the Republic of the Azerbaijan, Which is developing day by day, is one of the main purpose of our modern country and other western countries.**

**Scientific-practical significance of results: As a result of our research, we can note that when we talк about the areas in which economic security is applied, we can mention many areas.**



***Keywords: economic security, public policy, comprehensive development, legislation***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **GUAM** | Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **XDMX** | Xüsusi Dövlət Mühafizə Xidməti |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **Bİİ** | Beynəlxalq İqtisadi İnteqrasiya |
| **TƏBİB** | Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi |
| **ÜMM** | Ümumi Daxili Məhsul |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ............................................................** | **8** |
| **I FƏSİL.** | **İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ.............................................** | **12** |
| 1.1. | İqtisadi təhlükəsizliyin mahiyyəti və ümumi xarakteristikası .......................... | 12 |
| 1.2. | İqtisadi təhlükəsizlik konsepsiyaları və təhlükəsizlik sistemi.......................... | 19 |
| 1.3. | İqtisadi təhlükəsizliyin hüquqi və meta-hüquqi paradiqmaları.......................... | 33 |
| **II FƏSİL.** | **AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN İQTİSADİ-HÜQUQİ MEXANİZMLƏRİ.............................................** | **38** |
| 2.1. | Respublikamızda iqtisadi təhlükəsizliyin institusional təminatı........................ | 38 |
| 2.2. | Azərbaycanda iqtisadi təhlükəsizliyin normativ-hüquqi bazası........................ | 40 |
| 2.3. | Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin müasir vəziyyətinin təhlili............................................................ | 47 |
| **III FƏSİL.** | **QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN HÜQUQİ TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.............................................** | **54** |
| 3.1. | İqtisadi inteqrasiyanın təhlükəsizlik üçün yaratdığı təhdidlərin neytralaşdırılması istiqamətləri............................................ | 54 |
| 3.2. | Milli maraq və iqtisadi təhlükəsizlik üçün təhdidlərin qarşısını almaq üçün hüquqi təminatın təkmilləşdirilməsi istiqamətləri............................................ | 58 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................................** | **64** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI ........................................** | **67** |
| | Cədvəllərin siyahısı............................................................ | 72 |
| | Qrafiklərin siyahısı............................................................ | 72 |
| | Şəkillərin siyahısı............................................................ | 72 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bildiyimiz kimi, çağdaş dövrümüz üçün xas olan qloballaşma prosesi şəraiti bir çox ölkələrdə günü-gündən artmaqdadır. Bu da öz növbəsində dinamik inkişafı stabil şəkildə saxlanılması deyildə, tam tərsi olaraq, onun beynəlxalq aləmlə olan bağlantılarının formaya salınmasını yolu ilə mümkündür. Buna görə də, iqtisadi təhlükəsizliyə təhdid anlayışı, onun effektiv olaraq, təşkilinin aktual faktoru sayılması mümkündür. Azərbaycan Respublikasının iqtisadiyyatı üçün bu problem çox ciddi məqamlardan biridir.

Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin hüquqi təminatı bir sıra məsələlərlə bağlıdır. Bu məsələlər daima bir-biri ilə qarşılıqlı şəkildə bir birindən asılıdır. Bununla bağlı olaraq, həmin faktorlar üçün geniş bir sistem məxsusdur və həmin ölkənin iqtisadi təhlükəsizliyinin hüquqi təminatının verilməsindən dolayı həmin faktorları ayrı-ayrılıqda ətraflı şəkildə öyrənmək vacib şərtlərindən biridir. Bütün bunları nəzərə alaraq, problemlərin həlli üçün onların analiz edilməsiə sistemli şəkildə yanaşmaq lazımdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İqtisadi təhlükəsizliyin təmin edilməsi,müəyyənləşdirilməsi, aşkar edilməsi və təhdidlərin aradan qaldırılması, həm də bununla bağlı olaraq, bir sıra digər faktorlar ölkəmizdəki alimlərin iqtisadçıların yazdığı əsərlərə əsaslanmış və tədqiq edilmişdir. Azərbacyanlı alimlərdən əsasən, M. İ. Bərxudarov, N.M,Məmmədov, Kərimli İ.A , rus alimlərindən Степашин СВ, В.К.Сенрадова, В.Д. Щетенин. Загашвили В М, Прохоренко И.Л. və digər dünya alimlərinin əsərlərinə, elmi işlərinə və məqalələrinə əsaslanmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın başlıca məqsədi hazırkı şəraitdə müasir dövrdə Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafının təmin edilməsi şəraitində iqtisadi təhlükəsizliyin qorunması şərtləri daxilində, xarici amillərin səmərəli tətbiqi üzrə elmi-praktiki fikirlər vermək, bu sahədə

səmərəli işləyən dövlət tədbirlərinin həyata keçirilməsi istiqamətində təkliflər irəli sürməkdir.

Tədqiqat işinin məqsədi Azərbaycan Respublikasında olan iqtisadi təhlükəsizliyin davamlı iqtisadi artımının verilməsi, xarici faktorlardan effektiv istifadə yolunun tapılması daxilində, qeyd olunmuş sahədə effektiv işləyən ölkənin tədbirlərinin yerinə yetirilməsi istiqamətində təkliflər irəli sürülmüşdür.

Dissertasiya işində qeyd edilmiş problemlərin həlli ilə bağlı olan önəmli məsələlərin həlli üçün aşağıdakı vəzifələr mütləq icra olunmalıdır:
-Bazar münasibətləri şəraitində iqtisadi təhlükəsizliyin nəzəri-praktiki və elmi-metodoloji aspektlərinin təhlili və onun reallaşma dərəcəsinin ölçü və kriterilərinin müəyyənləşdirilməsi;
-Bazar şəraitində iqtisadi təhlükəsizliyin vacib xarakterlərinin tədqiq olunması və onların ümumiləşdirilməsi;
-Azərbaycan Respublikasında iqtisadi təhlükəsizlik üzrə məlumatların araşdırılması və onlara müvafiq qiymət verilməsi;
-Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin reallaşmasına istiqamətlənən iqtisadi-hüquqi vasitələrin təyin edilməsi;
-Azərbaycan Respublikasında iqtisadiyyatının tərəqqisinə istiqamətlənən dövlət siyasətinin samballı hüquqi əsasının yaradılmasının əhəmiyyəti və vacibliyinin arqumentləşdirilməsi;
-Azərbaycan Respublikasının iqtisadiyyat sahəsində beynəlxalq əlaqələrin inkişafı üzrə siyasətinin aparici istiqamətlərinin, bu sahədə işlək mexanizminin, vacib öhdəliklərin müəyyənləşdirilməsi;
-Beynəlxalq ticarət-iqtisadi münasibətlərin səmərəli həyata keçirilməsinə tələb olunan mühüm şərtlərin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiyanının əsas obyektini təhlükəsizliyə təhdid problemləri, məsələləri, əsas predmetini isə təhlükəsizliyin təminatının edilməsinin metodoloji, praktiki həm də, hüquqi təmin edilməsini nüanslarının qavranılması təşkil edir. Dissertasiyada qarşımıza qoyulan məqsədə

uyğun şəkildə hərəkət edsək, davamlı inkişaf və iqtisadi təhlükəsizliyə təhdid məsələləri göz önünə qoyulmuşdur. Buradaki əsas düşüncə transformasiya mühitində, davamlı şəkildə tərəqqiyə, iqtisadi təhlükəsizliyə təhdid hallarının maksimum aradan qaldırılmasına yönəldilmişdir. İqtisadi təhlükəsizliyə təhdid hallarının aşkarlanıb aradan qaldırılması halı xüsusi ilə irəli sürülmüşdür.

**Tədqiqat metodları:** Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin hüquqi təminatı məsələləri tədqiqatında müqayisəli təhlil, dinamika, statistik-iqtisadi-statistik, analiz, sintez, müşahidə və digər üsul və metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işinin informasiya bazasını əsasən AR-nın Dövlət Statistika Komitəsi, Dünya Bankı, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxana, İqtisadiyyat Nazirliyi və digər nazirliklərdən əldə edilən mənbələri əhatə edir.

**Tədqiqatın mədudiyyətləri:** Bütün dünya ölkələri üçün xas olan COVİD-19 pandemiyası da, bizim ölkdən yan keçmədi.Yoluxma saylarının artımı ilə, dövlət rəhbərliyi və TƏBİB-in təklifi ilə ölkə bir çox qapanmalara gedməkdə məcbur oldu. Bütün ticarət obyektlərinin, ictimai iaşə, bir çox iş yerlərinin bağlanması ilə iqtisadiyyatda gerilmə başladı. İqtisadiyyatda geriləmənin başlanması ilə iqtisadi təhlükəsizliyə təhdid faktorları artmağa başladı.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın yeniliyindən bəhs edərkən bir çox faktorlara toxunma bilərik və onlar aşağıdakılardır.

Qlobollasma durumunda Azərbaycan Respublikasının iqtisadi tərəqqsininin rasionallığını artıracaq iqtisadi siyasətin formalaşdırılması və təkmil edilməsinin zəruri hallarını əsaslandırmışdır

- Azərbaycan Respublikasının xariclə iqtisadi imkanlarını analiz edilmiş və digər ölkələrə ixrac qabiliyyətliliyi olan mallar müəyyən edilmişdir.
- Hal-hazırki dövrümüz üçün xas olan iqtisadi təhlükəsizliyə təhdidin aradan qaldırılması üzrə yerinə yetirilən tədbirlər müəyyənləşdirilmiş və

bir sıra makro iqtisadi cəhətdən indikatorlarının lazımi səviyyədən aşağı düşməsinin aradan qaldırılmasına yönəldilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatımız nəticəsində əsaslandırılmış şəkildə fikirlərə varılmış, vacibi təkliflər göz önündə qoyulmuş, həm də, dissertasiyanın tədqiqatında istifadə olunan elmi ədəbəiyyat vasitələri, elektron mənbələr qeyd olunmuşdur. Dissertasiya işinin əsas praktiki əhəmiyyəti ölkədəki iqtisadi təhlükəsizliyə təhdid hallarının maksimum drəcədə aradan qaldırılması, ölkənin inkişaf etdirilməsindən ibarətdir. Dissertasiya işinin əsas tədbiqi sahələri isə günümzdə olan iqtisadi fəaliyyətlə bağlı olan digər sahələri də qeyd edə bilərik.

# I FƏSİL. İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ VƏ METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. İqtisadi təhlükəsizliyin mahiyyəti və ümumi xarakteristikası

Hazırkı dövrümüz üçün vacibi problemlərdən biri də iqtisadi təhlükəsizlik problemidir. Həm siyasi, həm də iqtisadi rəqabətin artmaqda davam etdiyi indiki dövrümüzdə iqtisadi təhlükəsizliyin əhəmiyyətliliyi günü-gündən artmaqdadır. Belə bir sual ortaya çıxırki, iqtisadi təhlükəsizlik anlayışı nə deməkdir? İqtisadi təhlükəsizlik konsepsiyası iqtisadi nəzəriyyə və siyasətlə bağlı olan bir iqtisadi dərəcədir. Bu konsepsiya özündə özünə bir çox sıra iqtisadi anlayışları özündə birləşdirir.

İlk olaraq, təhlükəsizlik termini ətraflı şəkildə analiz etmək lazımdır. Təhlükəsizlik cəmiyyətin vacib həyati mənafelərinin qorunması halı, həmçinin də inkişafa meyllərinin daxili və xarici təhdidlərdən qorunması anlaşılır. Təhlükəsizlik sistemini qeyd etdikdə isə, dövlətin hər hansısa bir sahəsində olan çoxqəliz bir sistemi başa düşülür.

Dövlətin iqtisadi təhlükəsizliyindən bəhs etdikdə isə, uzunmüddətli dövr üçün xas olan daha səmərəli üsullarla xalqın hər fərdinə düşən maksimum dəyərdə iqtisadi resursların dayanıqlı və dinamik olan inkişafının təminatını vermək başa düşülür.

İqtisadi təhlükəsizlik ölkə iqtisadiyyatının effektiv dinamik artımı , cəmiyyətin, dövlətin və onun vətəndaşlarının ehtiyaclarını qarşılaya bilməsi üçün münasib olan internal və eksternal olan resursların toplusudur. İqtisadi mənafelər üçün başlıca təhdidi təkrar hasilin normal gedişatının qarşısını alan iqtisadi təhlükələr yaradır. İqtisadi təhlükəyə təhdidlər tam olaraq, daxili bölünmələrə və kənar bölünmələrə bölünə bilərlər. İqtisadi təhlükəsizlik ətraflı bir anlayış olduğundan, qlobal və daxili iqtisadi təhlükəsizliyi, həmçinin ölkə içərisində şirkətlərin və fərdi sahibkarların iqtisadi təhlükəsizliyini birini digərindən ayırd etmək gərəkdir.

Amerikalı ekspertlərin qənaətinə müvafiq olaraq, iqtisadi təhlükəsizlikdə azı iki halı ödənilməlidir.

1. Dövlətin iqtisadi suverenliyini qorumaq, təsərrüfatın inkişafına məxsus qətnamələrin qəbul edilməsi bacarığını itirməmək;

2. Cəmiyyətin qazanılan yaşam səviyyəsini stabil saxlamaq və sonrakı dövrlər üçün yaşam səviyyəsini yüksəltmək.

İqtisadi təhlükəsizliyin ən başlıca məqsədi hər bir şeydən əvvəla ölkənin milli mənafeyini qorumaqdan ibarətdir (Bərxudarov.M, Məmmədov.N, 2006, 302 s. 5). XX-ci əsrin 90-cı illərdən iqtisadi təhlükəsizliyin konsepsiyası problemlərini rusiyalı ekspertlər aktiv şəkildə öyrənmişlər. P.Vladimir iqtisadi təhlükəsizlik barəsində bir sıra müddəalara toxunmuşdur. : "Qeyd edilmiş müddəa ölkənin iqtisadiyyatının elə bir vəziyyətidir ki, həmən halda ictimai hasilat halının adi fəaliyyətinə maneələrlə qarşılaşan, əhalinin qazanılmış yaşam səviyyəsinə əngəl törədən və bununla da ictimaiyyətdə sosial problemləri artıran, həmçinin dövlətin mövcud olmasına təhdidli hallarına qarşı iqtisadiyyatın dayanıqlığı ola bilir.

Rus alimi olan Rubnov isə iqtisadi təhlükəsizliyi cəmiyyətin yaşayış səviyyəsini və daxili iqtisadi bazarın xarici amillərin mövcudluğundan asılı olmayaraq dəyişməməzliyini təmin etmək gücündə olan ölkə iqtisadiyyatının olması ilə müəyyənləşir. Rus alimi olan Vladimir Tambovtsevnin konsepsiyasına görə, qeyd olunan sistemin və yaxudda digər sistemin iqtisadi təhlükəsizliyi nəzərində tutduqda başlıca olaraq, qeyd olunan sistemin xassələrini daha dərindən anlamaq lazımdır ki, bu hal bütün sistemin qayəsini varmağa icazə verir.

İqtisadi müddəaları qeyd edən yazarların çoxu iqtisadi təhlükəsizliyi internal və eksternal faktorların təsirinə əks olaraq, iqtisadiyyatın möhkəm olması, möhkəmliyi isə onun artımı kimi qiymətləndirilir. Ölkə iqtisadiyyatı inkişafdan geri qalırsa, onun tənəzzülü qaçılmazdır.

İqtisadi təhlükəsizlik dinamik nöqteyi nəzərdən stabillik və iqtisadi artımı arzu edir. Bildiyimiz kimi, iqtisadi təhlükəsizlik indikatorları zaman ötdükcə yenilənə bilir.

İqtisadi təhlükəsizliyə aid olan yanaşmaları bir neçə kateqoriyaya bölmək mümkündür. İlk qrupun yaradıcıları (Leonid Abalkin və digərləri) iqtisadi təhlükəsizlik konsepsiyasına dövlətin ümumi istehsal təsərrüfatını xarici və daxili təhdidlərdən müdafiə edən müddəaların toplusu kimi qeyd edirlər. Digər qrupun yaradıcıları (Sençaqov, Quman və başqaları) iqtisadi təhlükəsizliyi ölkə iqtisadiyyatın elə bir situasiyası ilə əlaqələndirirlər ki, belə olan halda o dövlətin ən vacib gözləntilərini qorumaq gücünə malikdir. Sonuncu qrupun yaradıcıları (Qoçodeski, Arxipov və digərləri) iqtisadi təhlükəsizliyi regional və qlobal səviyyədə ictimai ehtiyacların vacib şəkildə təmin edilməsini qarşılayan iqtisadiyyatın performansı kimi anlaşılır. Bu halda ki, yuxarıda yazılan müddəalar bu konsepsiyaları araşdırsaq, sona yekun olaraq, bu nəticəyə çatmaq olar ki, iqtisadi təhlükəsizlik dövlətin təhlükəsizliyinin bölünməz hissəsidir. Dövlətin strukturu iqtisadi cəhətdən bütün olaraq, iqtisadi təhlükəsizliyin məsələsi kimi performans göstərir. İqtisadi təhlükəsizlikdə subyekt nəzərdə tutduqda isə hökümətin ali məclisi və icra hakimiyyəti orqanlarını qeyd edə bilərik.

Tədqiqatçılar iqtisadi təhlükəsizlikdən bəhs edərkən, dövlətin iqtisadi maraqlarının təminatının verilməsində xüsusi şəkildə nəzər yetirmişlər. Bir yöndən, iqtisadiyyatın sistemlərinin arasında effektiv bağlantılarının yaradılmasına, digər cəhətdən isə beynəlmiləl səviyyədə iqtisadi maraqların formaya salınmasının əsas prioritet vəzifəsi kimi göz önündə bulundurmuşdurlar.

Müştərək olaraq, elmi mənbələrdə “təhlükəsizlik “ məfhumu ilk olaraq 12-cü əsrdə Avropada istifadə edilmişdir. Həmin vaxtdan etibarən bu məfhum insan əxlaqını hər bir şəkildə təhdidlərdən müdafiə etmək mənasına gəlmişdir. Amma bu məfhum 17-ci əsrə qədər nisbətən daha az istifadə edilmişdir. Bu məfhumun əsası “polis” sözü ilə dəyişdirilmişdir. Həmin vaxtda “polis” sözü mütəmadi olaraq istifadə edilmişdir.Bu məfhumun tərkibi daha geniş göstərilmişdir. Bu halda ki, onun tərkibi dövlət strukturunu, dövlətin idarə sistemini özündə ehtiva etmək və amalı ölkənin daha yaxşı rifah səviyyəsini və təklükəsizliyini sığortlamaq idi.

17- 18-ci əsrlər boyunca əmtəə- pul münasibətlərinin artımıyla bağlı olaraq dövlətin iqtisadi sisteminin formaya düşməsi ölkənin məqsədinin dəyişməsilə nəticələnmişdir. Digər mənada, ölkənin təhlükəsizliyi əsas plana çevrilmiş və təhlükəsizlik məzmununda dəyişikliklər ortaya çıxmışdır. Bunun mənasında dövlətin daxilində sabitliyi təmin etmək, əhalini cismani və əxlaqi təhdidlərdən qorumaq, iqtisadi və politikal sahələrin təhlükəsizliyinə təhdid olan faktorları maksimum dərəcədə azaltmaq kimi məqamlar da ortaya çıxmışdır.

Təhlükəsizlik anlayışı ictimaiyyətin artım səviyyəsi və beynəlxalq əmək bölgüsünün (BƏB) dolğunlaşması ilə başlıca olaraq, bağlıdır. Çağdaş ölkə iqtisadiyyatı sisteminin yüksəlişi ölkələrin xammal qaynaqları, satış bazarlarından ötrü mübarizə yeritmələri, birinin digər birisinə təhdid yaratması, eyni vaxtda ölkənin içərisində xalqın çox az bir hissəsinin həddindən çox varlanması, çoxluğun isə ehtiyaclarının artması təhdidi artırır və buna nəticəsində isə ölkə daxilində təhlükəsizliyin qurulması vacibi tələbata çevrilir.

Ölkədə təhlükəsizliyin qarantiya edilməsi çətin və qəliz sistemə çevrilmişdir. O, qarşılıqlı olaraq, əsasən bir çox sferanı əhatə edir. Burada vertikal istiqamətdə, qısaca desək ictimaiyyətin təhlükəsizliyinin zəmanətinin verilməsi və ölkənin təhlükəsizliyinin qarantiyasının verilməsi aiddir (Kərimli İ.A., "CBS", 2006, 166 s.).

İqtisadi təhlükəsizliyin qarantiyasının verilməsi predmeti eyni vaxtda horizontal səviyyədə olan xarakteristikaları də əhatə edir. Buraya əsasən elmi, texniki, siyasi  və digər sferaların təhlükəsizliyinin qarantiyasının verilməsini də daxil etmək mümkündür.

Beləcə olaraq, "təhlükəsizlik" mövhumuna aşağıdakı tərifi vermək mümkündür: "İctimaiyyətin və ictimaiyyətin strukturlarının xarici və daxili təhlükələrdən müdafiə edilməsi meylinə və halına təhlükəsizlik deyilir".

Başlıca olaraq, təhlükəsizlik prinsipi əhalinin, ictimaiyyətin və ölkənin mühüm həyati maraqlarını əhatə etmək məcburiyyətindədir. Əhalinin, ictimaiyyətin və ölkənin zərurətinin daha dolğun və güvənilirliyinin təmin edilməsi dövlətin təhlükəsizliyinin təminatının verilməsindən asılıdır. Təhlükəsizlik

anlayışına həm də ümumi həyat aspektləri daxildir. Beynəlmiləl iqtisadi birləşməsinin və qloballaşmanın dahada genişhəcmli miqyas aldığı vəziyyətdə millətin özünəməxsusluğunun silinməsi təhlükəsi ortaya çıxmışdır. Belə ki, hər bir millətin müəyyən dövrlər ərzində formalaşmış əxlaqının mənəvi cəhətdən qorunub saxlanması ölkənin mühüm vəzifələrindən birinə çevrilmişdir. Hal-hazırki gündə dövlətin iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas göstəricisi onun prinsiplərinə necə baxılmasından asılıdır. Bu halda ki, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas prinsiplərini aşağıda qeyd olunanlardır:

- Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsində əsas olaraq, AR-nın Konstitusiyasına və onun qayda-qanunlarına tam olaraq riayət edilməlidir;
- İqtisadi təhlükəsizlik başlıca olaraq, dövlətin vahid olan siyasətinə əsaslı şəkildə uyğun olmalıdır və onun təmin olunması istiqamətləri balanslaşdırılmada və ilişkiləndirilmədə müstəsna rolu olmalıdır;
- İqtisadi təhlükəsizliyin təmin edilməsində hökumət orqanları bir-birinin arasında vəzifələrinin dəqiq müəyyənləşdirilməsi, həmin orqanların fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsi və hökumət orqanların bir- birini operativ şəkildə məlumatlarını ötürməsi;
- İqtisadi təhlükəsizliyin qarantiyası ilə onun fəaliyyətin həyata keçirilməsinə ciddi nəzarət;
- Beynəlmiləl təhlükəsizlik sistemlərinə birləşmə;
- Əhali, cəmiyyət və hökumətin maraqları arasındakı müvazinətin saxlanılması və onların arasındaki qarşılıqlı cavabdehlik hüququ

Həm iqtisadi təhlükəsizliyin təmin edilməsi prinsiplərini kontrol edən orqan, həm də təhlükəsizlik sisteminin layihəsini hökumətə təqdim edən komitə, də bəzi müddəalara ciddi şəkildə əməl etməlidirlər:

Ətraflı və operativ: Əhatəli siyasi kursun dövlət səviyyəsində müəyyən formaya düşməsi tərəflərin təhlükəni minimumuma endirməklə bağlı maraqlarının hər bir cəhətdən ifadə edilməsinin və qeyd olunan maraqların müəyyən vasitələrə və müəyyən imkanlara uyğun olmasının ən uğurlu yollarından biridir.

Diskussiya və məmnunluq: Diskussiyaların aparılması və məmnunluğun aparılması ən çox dəstəklənən və rasional şəkildə tətbiq edilən təhlükəsizlik sistemlərinin hazırlanması üçün lüzumlu olan nüanslardan biridir.

Təhlükəsizliyin yoluna qoyulması: Birləşmiş Millətlər Təşkilatının təhlükələr, təhdidlər və digər müyəssər olan hallar üzrə Ali Komissiyasının hesabatı vaxtında adları çəkilən təhdidlər də aid olmaqla təhlükələrin və digər təhdidlərin geniş bir hissəsinə mütləq şəkildə diqqət olunmalıdır: siyasi və iqtisadi təhlükələr (ölkələrarası münaqişələr, ölkələrdaxili münaqişələr, terror, cinayətkarlıq, iqtisadiyyatın yüksəlmə dinamikası, yoxsulluq və.s).

Şəffaflıq: Hazır olma prosesinin transparantlığı spesifik maraqların, hər bir nazirin və yaxudda təhlükəsizlik orqanlarınnın başlıca maraqlarının yekunda üstün olmasının qarşısını ala bilir.

Müntəzəm olaraq nəzarət və qarşıya çıxan bütün təhlükələrin dəyərləndirilməsi: Münətəzəm olaraq, komitə hal-hazırki təhlükəsizlik sistemi ilə inkişaf etməkdə olan ümummilli və beynəlmiləl atmosfer arasındakı uyğunluğa daimi şəkildə nəzarətində saxlamalıdır. Ölkədəki bütün nəzarət orqanları komitələrin təsdiq etdiyi bütün prinsiplərə mütləq şəkildə riayət etməlidirlər.

Beynəlmiləl konsepsiyalar: Heç bir hökumət əlahiddə olaraq "milli"və "iqtisadi" təhlükəsizlik politikası irəli sürə bilməz. Hökumətin təhlükəsizliklə və yaxud iqtisadiyyatla bağlı olan çoxmilliyətli təşkilatlara üzv olması qaçılmazdır.

Ümumi olaraq desək, hər bir ölkə və ya qurum sonda öz müsbət nəticəsinə çatmaqdan dolayı özünün strategiyasını hazırlamaq məcburiyyətindədir. Strategiya dedikdə isə, strategiya yunan mənşəli söz olub, Yunanıstanda istifadə edilmişdir. Strategiya sözü ilk olaraq, dəniz qüvvələrindən və quru qoşunlarının irimiqyaslı əməliyyatlarında istifadə edilmişdir. Amma ki, çağdaş dövrümüzdə strategiya anlayışı, dövlətin ekonomik və təhlükəsizlik elmində hərbi sənət qismində deyil, ekonomik və milli olan təhlükəsizlik anlayışı kimi də istifadə edilir.

İstənilən dövlət müstəqil olduqdan sonra, özünün strategiyasını mütləq şəkildə hazılamalıdır və strategiyasından effektv şəkildə istifadə etməlidir.

Strategiya hazırlanarkən, siyasi məqsəd düzgün seçilməlidir. Siyasi strategiya hökumətin əsas prinsipi və məqsədi olmalıdırki, gələcəkdə inkişafı təmin edə bilsin.

Dövlətin artım istiqaməti politikal strategiya adlandırılır. Dövlətin siyasi strategiyasında milli təhlükəsizlik problemi ön plana çəkilməlidir.

Dünya ölkələri siyasi strategiyalarını əsasən aşağıdakı istiqamətdə qururlar :

1. Siyasi təsir siyasəti
2. Hegemon siyasət
3. Texno siyasət

Dünya ölkələri məqsədlərini iqtisadi artım, yatırım, maliyyə, texniki sahədə qarşılıqlı olaraq, əməkdaşlığı genişləndirməklə həyata keçirirlər. Anti- demokratik dövlətlər siyasi strategiyalarını ən çox hərbi üsullarla həyata keçirməyə çalışırlar. İqtisadi təhlükəsizlik strategiyasında ən çox iqtisadi təhlükəsizlik strategiyası əsas yer tuta bilir. Ona görə ki, strategiyalar bir- birilə qarşılıqlı bağlı olmuş, biri digər birisini başlıca olaraq, şərtləndirir (Bərxudarov.M, Məmmədov.N, 2006, 302 s. 13).

Ölkənin iqtisadi strategiyası dedikdə, həm xarici, həm də daxili siyasətdə milli-mədəni dövlətin mənafelərini , təhlükəsizliyini və xərclərinin vacib yönlərə istiqamətləndirilməsi nəzərdə tutulur.

Ölkənin xarici siyasətində ictimaiyyətin ekonomik, sosial, ideoloji, mənəvi resursları nəzərə tutulur. Hökumətdə sabitliyin qorunması üçün başlıca olaraq işsizliyin minimum səviyyəyə endirilməsi, cinayət hallarının azaldılması, sabitliyin qorunması mütləq şəkildə vacibdir.

Hazırki dövrdə yer kürəsində qütbləşmə prosesi günü-gündən artmaqdadır. Dünyada ölkələri əsasən, 2 qrupa- kasıb və varlı ölkələrə ayrılır. Azərbaycan Respublikası təkcə resurslarına görə yox, elmi potensialına görə də İEÖ-dən geri qalmamaqdadır və mütləq şəkildə ölkəmizin əsas məqsədi İEÖ-lər sırasına qatılmalıdır. Ölkə, qeyd etdiyimiz faktorlara nail olmaqdan dolayı ölkə daxilində iqtisadi təhlükəsizlik strategiyasını gücləndirməlidir. Yuxarıda qeyd olunan məsələləri həll etmək potensialı ölkəmizdə mövcuddur. Bu halda ki, ölkəmiz orta

və yüksək dərəcəli kadrlara, fərqli səviyyələrdə ixtisası yüksək olan dövriyyə vəsaitinə, uzunmüddətli elmi və istehsalat potensialına, imkanlı təbii resurslara, strateji coğrafi mühitə sahibdir.

İqtisadi təhlükəsizlik planı şəxsin, ölkənin və cəmiyyətin vacib iqtisadi tələbatlarına təhdid ola bilən faktorları, bir illik və çox illik (3-5) tələbatında dövlətin ictimai- ekonomik sisteminin dözümlülüyünə təhdid yarada bilən faktorların müəyyən olunmasını və yoxlanılmasını, iqtisadi bölmədə mill-mədəni iqtisadi maraqları şərti amilə çevirən və iqtisadi təhlükəsizliyin zərurət verən amillərin müəyyən olunmasını özündə ifadə edir.

## 1.2. İqtisadi təhlükəsizlik konsepsiyaları və təhlükəsizlik sistemi

Yuxarıda göstərildiyi kimi, çağdaş dövrümüzdə aktuallığı artan amillərdən önəmli birisi iqtisadi təhlükəsizlik amilidir. Siyasi, iqtisadi rəqabət hal-hazırda günü-gündən güclənməkdə davam edir. Burada da iqtisadi təhlükəsizliyin önəmlilik faktoru günü-gündən yüksəlir. Ümumilikdə desək, iqtisadi təhlükəsizliyə 2 yöndən yanaşa bilərik. Başlıca olaraq, birinci yöndən, qeyd olunan variantda ölkənin və cəmiyyətin iqtisadi təhlükəsizliyindən bəhs edilir. Başqa variantda isə, geniş deyildə, dar mənada yanaşsaq, mülkiyyətçinin, hər-hansısa fəaliyyəti iqtisadiyyatla bağlı olan hüquqi və yaxudda hər hansısa bir fiziki şəxsin iqtisadi təhlükəsizliyindən bəhs edilir.

İqtisadi davamlılığın təmin edən iqtisadi təhlükəsizlikdir. Digər sözlə desək, burada iqtisadi tədbirlər planının icrası nəzərdə tutulur, sonda bunun yekunu olaraq savaşlar, təbii hadisələr vaxtı iqtisadi imkanlar minimuma endirilir. Yer kürəsində olan ölkələrin hər birinin iqtisadi təhlükəsizlik tədbirləri fərqlidir. İqtisadi tədbirlər bəzi təbii amillərlə qarşılıqlı olaraq bağlıdır. Ümumi sözlə desək, təhlükəsizliyin təmin edilməsinə aid olan amilləri 2 qrupa bölə bilərik. 1-ci qrup amillər aşağıda qeyd olunmuşdur:

- ölkənin təbii resursları;

- ölkənin yerləşdiyi ərazi ;
- təbii ehtiyatlar və s.

İkinci qrup amillər isə bilavasitə mövcud hökumətin yürütdüyü siyasətdən asılıdır ki, bunlar da aşağıdakılardır:

2-ci qrup amillər isə:
- dövlətin quruluşu;
- idarəetmə prinsipləri;
- hökümət orqanları;
- ölkənin İKT-si;
- dövlətin BƏB-dəki mövqeyi və s.

Ölkənin aid olduğu olduğu təbii resursların umumi dövriyyəsi ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində başlıca amillərdən biridir.Əgər ölkə təbii ehtiyatlarla zəngindirsə, həmin ölkənin iqtisadi təhlükəsizliyi də elədə böyük xərc tələb etməyəcəkdir. Həmiçinin ölkəmiz də, ehtiyatları zəngin olan ölklər sırasına daxildir. 1-ci qrup amillərinə diqqətlicə baxsaq, görərik ki, bu müddəalar ölkəmizdə də mövcuddur. 1990-cu illərdən etibarən Avropa ölkələri öz ölkələrinə məxsus olan iqtisadi təhlükəsizlik strategiyaları hazırlayırlar. Hal-hazırda İEÖ-də qeyd olunan məsələlərlə bağlı xüsusi institutlar fəaliyyətdədir.

Ümumi olaraq, desək, hüquqi şəxs olmayan sahibkar fəaliyyətində qeyd olunan təhlükəsizlik faktorlarını, xarici və daxili olaraq, iki qruplara bölə bilərik:

Xarici amillər aşağıda sadalananlardır:

1. bazar iqtisadiyyatı şəraiti;
2. dövlətdəki qanunvericilik prinsipləri;
3. rəqabətqbiliyyətlilik;
4. ortaqlar;
5. dövlətdəki maliyyə stabilliyi və s.

Daxili amillər isə aşağıdakı sadalananlardır:

1. kollegiyaların professionallığı;
2. idarəetmənin təşkili və s.

Bizə bəlli olduğu kimi, ölkənin iqtisadi təhlükəsizliyi dedikdə, ölkəni iqtisadi təhdidlərdən qorumaq başa düşülür. Başlıca olaraq, aşağıda qeyd olunan amillərin mövcud olması cəmiyyət və ölkə üçün iqtisadi təhdidin faktorları sayılır:

- Dövlətdəki ətraflı yenidən hasılatın zəruri dərəcədə olmaması, bunun yekunda daxili tələbin ən çox kənardakı hasılatın hasilləri hesabına konpensasiya edilməsi;
- Xalqın rifah səviyyəsinin azalması, işsizlik əmsalının müsbət dərəcəyə qalxması;
- Dövlətin ixracında TB-nın (Ticarət Balansı) azalması;
- Zərurətin artması və dövlət tənzimlənməsinin zəifləməsinin sonda iqtisadi qanun pozuntularının yüksəlməsi;
- Dövlətin fiskal və monetar siyasətinin mükəmməl olmaması, sonda isə pulun dəyərdən düşməsi təhdidinin aktual hala gəlib çıxması;
- Yuxarıda qeyd olunan dövlətin siyasəti nəticəsi olaraq, Çarls Pontsinin piramidalarının tətbiqi üçün müfəssəl şansların açılması;
- Ərzaq məhsulları hasilatının böhranı;
- Ehtiyat fondlarının kəmiyyət və keyfiyyətinin aşağı səviyyədə olması;
- Dövlətin strateji sektorlardan əldə etdiyi gəlirin optimal və lazımi ünvanlara xərclənməməsi;

Yuxarıda bütün qeyd edilən müddəalar ölkənin iqtisadi sabitlik vəziyyətinin dəyişməsi , xalqın rifah səviyyəsinin azalmasına və bəzi böhranlara yol aça bilər. Hüquqi şəxs olmayan sahibkarlıq fəaliyyətini həyata keçirənlərdə iqtisadi təhdidin faktorlarını isə ümumi olaraq aşağıdakı kimi qeyd edə bilərik:

- Ortaqların münasib olması;
- Maliyyə resurslarının düzgün idarə edilməməsi;
- Ticarətin gizli saxlanılması;
- Şirkətin müflis olmasına sürükləyəcək addımlar;
- Reklamın zəif qurulması nəticəsində sonda şirkətin bazar iqtisadiyyatına uyğun olmamasına gətirib çıxarması;

- Şirkətdə olan kadrların yanlış seçilməsi nəticəsində şirkətin günü-gündən müflis duruma düşməsi və s.

Yuxarıda qeyd olunan bütün halların mövcud olması ölkənin iqtisadi durumuna təhdidlər yaradır. Qeyd etdiyimiz kimi, yuxarıda qeyd olunanlar iqtisadiyyatın xassələrinin ümumi olan formalarından biridir. Bəzi ölkələrdə yuxarıda qeyd etdiklərimiz göstəricilər, konkret rəqəmlərlə ifadə olunur. Məsələn, pulun dəyərdən düşməsi ən çox 3% olmalı və s. Ölkəmiz və yaxudda digər ölkələrdə bu problemlər qlobal problemlər halını almışdır və hal-hazırda bir çox ölkələr bu problemlərin həlli yolunu axtarır.

Müasir dövrümüzdə olan dünya ölkələrinin iqtisadi təhlükəsizliklərinin problemləri günü gündən artmaqdadır. Dünya ölkələrinin bir çox qisminin iqtisadiyyatı rəqabət qabiliyyətliliyini də itirməyə başlayır. Azərbaycan Respublikasının iqtisadiyyatı, XX əsrin 90-cı illərindən bazar iqtisadiyyatı nəzərlərinə doğru iqtisadiyyatın dəyişilməyə start verməsi, həm ümummilli, həm də iqtisadi təhdidlərə fikir vermədən həyata keçirilməsini üstün tuturdu. Dünya ölkələrinin büdcəsində olan kəsrlərin müəyyən dərəcəsi, büdcə defisiti 20% kimi, 3-4 il ərzində isə ən azı 10% olmalı deyildir.

Ölkə ərazisində olan qiymət səviyyələrinin sabitləşməsi, sonda müəyyən dövlər ərzində iqtisadiyyatın aşağı səviyyədə olması və həmin dövrlər üçün 25%-i aşmaması mütləq haldır. Amma ki, statistikaya nəzər yetirsək XX əsrin 90-ci illərindən inflyasiyanın səviyyəsi 1600-1700% olmuşdur. İnflyasiyanın göstəricilərinin artması təbii ki, işsizliyin azalmasına səbəb olacaqdır. Lakin işsizliyin artması nəticəsində isə, bazar qiymətlərinin arasındakı bağlılıq mexanizmi məhv olunuşuna yol açacaqdır, bu da bazar iqtisadiyyatının tənəzzülünə yol açan faktordur. İnflyasinın artması dövlətin iqtisadiyyatına çox mənfi təhdidlər yarada bilər və bu da bəzi sahələrdə öz mənfi üzünü müəyyən vaxt keçdikçə göstərəcəkdir. İqtisadi təhlükəsizlik faktorlarından əsas biri də dövlətin qızıl və valyuta fondlarının ümumi dövlət büdcəsinin 40%-dən az olmamasıdır. Buna baxmayaraq, XX əsrin 90-cı illərindən Azərbaycanın dövlət büdcəsinin əsas

göstəriciləri aşağı səviyyədə olmuş sonda isə bu göstəricilər 10 milyarda gəlib çıxmışdır.

Dövlətin xarici ölkələrə öhdəlikləri, iqtisadi təhdidlərin təmin edilməsini vacib şərtləndirən amillərdən biri olduğu üçün, öhdəlik 10 il ərzində əldə edilirsə, Ümumi Daxili Məhsul 50% çox ola bilməz. Eyni vaxtda ölkənin sərvətinin 5 faizini, 1 il ərzində olan büdcənin isə 20 faizindən artıq olmamalıdır.

Azərbayan Respublikasının daxili borcunda isə borcun geri verilməsində 10 il müddətində isə Ümumi Daxili Məhsulun 75 faizinin həcmində, və dövlətin büdcəsinin 20,5 faiz həcmindən artıq olmamalıdır.

Bir neçə situasiyalarda xarici və daxili öhdəliklər vaxt keçdikçə borcları mülayim formalarla əvəz edilə bilər. Ölkəmiz hal-hazırda digər ölkələrlə olan beynəlxalq iqtisadi münasibətlərini artırmaqdadır. Bu səbəbdən də, ölkənin tədiyyə balansı ixrac yönümlüdür və bu da dövlətin təminatını digər ölkələrdən idxal hesabına təmin edə bilir. Beynəlxalq sistemdə əsasən ÜDM əsas göstərici götürülmüşdür. İqtisadi baxımdan isən ÜMM faktoru da əsas göstəricilərdən biridir. Yuxarıda qeyd olunan 2 termin də dövlətin iqtisadiyyatında istehsalda olan sonuncu əmtəənin həcmi ilə müəyyənləşdirilir. Qeyd edilmiş göstəricilər cari və hər hansısa baza ili üçün müqaisə. kimi hesablana bilir.

1. Real ÜDM və nominal ÜDM göstəriciləri hər biri bir-birindən fərqləndirilir. Nominal Ümumi Daxili Məhsul həmin dövürdə istehsal olunmuş və cari dövrün dəyəri ilə ölçülmüş, əmtəə və xidmətlərin qiymətini, real Ümumi Daxili Məhsul isə eyni dövrdə istehsal olunmuş, ancaq tam müəyyənləşdirilmiş əsas ilinin dəyərləri ilə ölçülmüş əmtəə və xidmətlərin qiymətini göstərir.

2.Əsas ildən fərqli olaraq, hazırki ildə iqtisadiyyatın yüksəliş tempini ifadə edən iqtisadi artma /azalma sürəti;

3. İnflyasiyanın dərəcəsi.Bu formal olaraq alınan mallarının müəyyən edilmiş dövr ərzində dəyərinin hansı səviyyədə yüksəlməsini və ya düşməsini ifadə edilir və faizlə əks edilir;

4. Sosial rifah aşağı səviyyəsi. Bu o mənaya gəlir ki, bütün vətəndaşların qazandıqları əmtəə və xidmətlərin toplusu onların fiziki və sosial ehtiyaclarını minimum dərəcədə təmin edə bilsin.

Əhalinin ehtiyaclarının günü- gündən artmasını göz önündə tutsaq, dövlətin bu ehtiyacların təmin olunmasına köklü şəkildə nəzarət etməli olduğunu deyə bilərik. Sadəcə olaraq, ərzaq məhsullarına nəzər yetirsək, adam başına düşən ərzaq məhsullarının dəyərinin zaman keçdikcə yüksəlişini görə bilərik. Minimum əməkhaqqını yüksəltməklə, dövlət, bu artımlı ehtiyacların təmin edilməsini həyata keçirir. İstər dövlət, istərsə də qeyri-dövlət neft sektorunda çalışan işçilərin əməkhaqqısı da əhalinin yüksələn tələbatına düz mütənasib olaraq qaldırılmalıdır. Əməkhaqqını yüksəltməklə zaman keçdikçə əhalinin artan ehtiyaclarını qarşılamaq dövlətin diqqət ayırdığı prioritet məsələlərdəndir;

5. İşsizlik dərəcəsi. Bu dərəcə ümumi işçi qüvvəsinin hansı hissəsinin hazırda işsiz olduğunu göstərir və faizlə ifadə edilir ;

6. Büdcədə olan kəsr. Büdcə mədaxilləri büdcənin sərfiyyatlarını qarşılaya bilmirsə, bu vəziyyət büdcə kəsri adlanır, əgər büdcə mədaxilləri büdcə sərfiyyatlarından çoxdursa bu vəziyyət büdcə profisiti adlanır;

7. Dövlətin xarici borcu. Xarici investorlar tərəfindən ölkəyə investiyaya qoyulması, idxalın ixrac əməliyyatlarını üstələməsi, büdcə kəsrini qarşılamaq üçün dövlətin xaricdən aldığı vəsaitlər dövlətin xarici borcu yaranmasına səbəb olur.

8. Yoxsulluq dərəcəsi. Əgər bir şəxsin aylıq gəliri ölkə ərazisində müəyyən olunmuş yaşayış minimumu təmin edəcək vəsaitdən azdırsa, həmin şəxs yoxsul sayılır. Yaşayış minumumu yüksəltmək yoxsulluq dərəcsini azalmasına kömək edir.

Sahibkarlıq fəaliyyətində iqtisadi təhlükəsizlik göstəricələrini isə, aşağıdakı kimi qeyd etmək mümkündür:

1. kəskin rəqabət şəraitində şirkətin bazardakı imicini qoruya bilməsi;
2. rəqabətin var olması;

3. şirkətin reklam və idarə etmə qabiliyyətinin müasir standartlara cavab verməsi;
4. iqtisadi təhlükəsizliyin müəyyən olunmuş standartlara müvafiq olması;
5. şirkətin məxviliyinin saxlanılması;
6. müqavilələrin şərtlərində qeyd olunmuş ardıcıllığa müvafiq olaraq, tətbiq olunması;
7. şirkətin gələcəkdə yarana bilənəcək problemlərə hazırlıqlı olması;
8. əmrlərin müəyyənləşdirilmiş şəkildə icra edilməsi və s.

Çağdaş dövrümüz üçün xas olan iqtisadi təhlükəsizliyin təmin edilməsi deyildə, əsasən onun analizi təxirəsalınmaz məsələ olmuşdur. Bu halda ki, cəmiyyətdə iqtisadi təhlükəsizlik planı hazırlanan anda , əsasən təhlükənin amilləri və dəyərləndirilməsi əsas məsələ olmuşdur. Nəticədə isə, sonda bu, bacarıq və problemlərin düzgün həll olunmasını, və onun xassələrini öyrənilməsini zərurət yaradır. Bu səbəbdən də, qeyd olunan sistemi ətraflı olaraq, tədqiq etmək mütləqdir.

İqtisadi tərəqqi dönəmində hər bir dövlət üçün xas olan sosial rifaha nəzərən, xalq arasında iki təbəqə formalaşdırılmışdır. Kasıb və varlı təbəqələr. İnkişaf etmiş ölkələrdə əgər 75% xalq normal yaşayırsa, o zaman həmin dövlət artımdadır. Dünyanın təcrübəsində isə bu hal təqribi olaraq, 10-15% dərəcəsi ilə müəyyən edilir. Bütün bunlara təsir göstərən amilləri nəzərə alaraq, aşağıdakı cədvəli qeyd edə bilərik.

Bütün ölkələrin iqtisadi təhlükəsizliyi ölkənin iqtisadiyyatının yüksəlməsindən, ölkənin sosial-iqtisadi artım istiqamətlərindən və.s vacib amillərdən asılıdır.

İqtisadi təhlükəsizlik amillərinin əsası, səmərəli olan güclərin artım səviyyəsi ilə birbaşa olaraq əlaqədardır. İnkişaf istiqaməti olan bütün dövlətlər təkrar hasilatı elə nizama salmalıdır ki, ölkənin hasilatı tələbinin bir çoxlu hissələrini qarşılaya bilsin və buda nəticədə dövlətin başqa dövlətlərdən asılı olmamasının təminatını verəcəkdir. İqtisadi təhlükəsizliyi təmin etmək üçün əhalinin bir olması, hökumətin

apardığı düzgün və ağıllı siyasətindən qaynağlanır. Dövlət, əhalinin mənafelərini başlıca amil olaraq tutsa, əhali hökumətin ətrafında daha sıx dayanar, əgər bu olmazsa isə əhali dövlətə olan inamını itirməsinə yol açacaqdır.

**Qrafik 1:** İqtisadi təhlükəsizliyin göstəriciləri




**Mənbə:** Məmmədov.N.M. N 2005,310 səh.

Azərbaycan Respublikası bildiyimiz kimi, yeni qurulmuş çağdaş, müasir dövlətdir. Bu da, öz növbəsində təcrübə və imkanların məhdud olunmasını yaradan amillərdən biridir. Amma ölkəmiz digər çağdaş İEÖ-in praktikasından istifadə edib, iqtisadi təhlükəsizliyin mahiyətini və məqsədlərini müəyyən etmək qabiliyyətində ola bilər. Misal üçün, Amerika Birləşmiş Ştatlarının iqtisadi təhlükəsizliyinin təminatında əsas məqsədi, dünyada olan hegemonluğunu saxlamaqdan ibarətdir. SSRİ-da iqtisadi təhlükəsizliyin təmin edilməsinin məqsədi

isə, inzibati-amirlik strukturasını, dünyaya başçılıq etməsini qoruyub saxlamaqdan ibarət olmuşdur. Sonda belə nəticəsə çatmaq olar ki, hegemon dövlətlərin iddiaları bizdə qətiyyən olmamışdır. Azərbaycan Respublikasının buradakı əsas məqsədinə gəldikdə isə, ölkəmizin ərazi bütövlüyünü qoruyub saxlamaq və sonda bazar iqtisadiyyatı yaratmaqdan ibarət olmuşdur. Nəticədə isə, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam olmuşdur.

Dünya ölkələrinin iqtisadi təhlükəsizlik sisteminin müəyyən formaya salınması birbaşa olaraq, tarixi və coğrafi amillərlə sıx bağlıdır. Bu səbəbdən də, qeyd olunan amillərə toxunmaq mütləqdir. Azərbaycan Respublikasının vacib olan coğrafi regionda yerləşməsi, 9 iqlim tipində olması səbəbdən də, Ermənistan dövlətinin təhlükəsinə məruz qalmışdır.Azərbaycan Respublikasında texniki inqilabın baş verməsi səbəbi ilə, ölkəmiz günü-gündən yeni sənayeləşmiş dövlətlərin sırasına qatılmağda günü-gündən yaxınlaşır.

Ümumi olaraq desək, AR-da xaricdən deyildə, daxildə də təbii ki iqtisadi təhdidlərə məruz qala bilər. İqtisadi təhdidlərin və təhlükələrin əsas göstəriciləri aşağıda qeyd olunanlardır:

1. iqtisadiyyatın quruluşunun dəyişməsi;
2. yatırım və inkişaf aktivliyinin azalması;
3. ölkənin digər ölkələrdən hasilatının artması;
4. ictimaiyyətdə təbəqələşmənin güclənməsi;
5. Digər ölkələrə olan borc səviyyəsinin çoxluğu ;

Ölkənin iqtisadi təhlükəsizliyinin təminatında hasilatın formalaşması faktoru əsas stimullarından biridir. Bu məfhum, əsas yeni müstəqil olmuş dövlətlərə xas olan əlamətdir. Yeni müstəqil olmuş dövlətlər üçün ölkədəki hasilatının inkişaf etdirməsi mütləq amildir. Misal üçün desək, Almaniya ağır maşınqayırma hasilatını , Amerika Birləşmiş Ştatları avtomobil istehsalatını, Yaponiya elektronika istehsalatını bu sferanın çərçivəsində rəqabətqabiliyyətliliyini inkişaf etdirmiş, qeyd olunan sahələrdən gəlirlər əldə etmiş və nəticədə öz hasilat quruluşunu öz hesabına uyğun yaratmışdır. Ölkəmiz üzün qeyd olunan sənaye

neft- maşınqayırması ayırd edilmiş və hal-hazırda bu sahə günü-gündən inkişaf etməkdədir.

Ölkəmizə təhdid yaradan iqtisadi problemlərdən biri də elmi-texnikanın dağılması məsələsidir. Bunun başlıca olaraq, əsas səbəbi isə, bildiyimiz kimi investisiya və inkişafın aşağı düşməsi ilə bağlıdır. Bu problemləri aradan qaldırmaq üçün ən əlverişli vasitə təsərrüfata böyük həcmdə kaptal yatırmaqdan ibarətdir. Amma ki, respublikamızın geniş təbii resursları olması çox müsbət haldır. Bu da öz növbəsində ölkədə sabitliyin qorunmasına yol açır. Onu da bilmək lazımdır ki, resurslar da müəyyən dövrdən sonra tükənmək təhlükəsi ilə qarşılacaqdır.  Bu səbəbdən də resurlardan əlverişli istifadə etmək məqsədəuyğun haldır. Mal və alıcılıq qabiliyyəti olan mallarının digər ölkələrdən hasilat bağımlılığının artması sonda dövlətin iqtisadi təhlükəsizliyini problem altında qoyacaqdır. Bu isə iqtisadiyyatın artım və inkişaf tempinə, xalqın yaşam səviyyəsinə mənfi hal yaradacaq hallardan biridir.

Respublikanın iqtisadiyyatına təhdid yarada biləcək faktorlardan biri də digər xarici ölkələrə axan kapital, valyutanın xaricə daşınması amilidir. Bu amilin aradan qaldırıması üçün ilk növbədə, onun səbəbini öyrənmək lazımdır. Ölkəmizdə olan kapitalın xaricə daşınmasında bir neçə amil mövcuddur. Siyasi və iqtisadi stabilliyin zəif olması ölkədəki risk amilini olduqca gücləndirir. Dünya ölkələrinin praktikası isbat edir ki, Ümumi Daxili Məhsulda iqtisadi təhdid 55%-i keçən andan sonra başlayır. Faktiki olaraq, ölkəmizdə də bu cür problem mövcuddur və bu da təbii haldır. Azərbaycan Respublikası müasir, çağdaş yeni dövlətlərdən biridir və bu problemlər vaxt keçdikçə müəyyən sahələrdə olan islahatlar nəticəsində aradan qaldırılacaqdır.

Respublikamızda ən böyük iqtisadi təhlükələrdən biri də əhalinin təbəqələşmə prosesidir. Dünya ölkələrinin hər birində olduğu kimi,  bizim ölkəmizdə də təbəqələşmə vardır. Əgər qərb yarmürəsində əhalinin 70%nin vəziyyəti qənaətbəxş, qalanı isə pis olarsa deməli, ölkə bir addım öndədir.

Respublikamızda isə bu hal elədə müsbət vəziyyətə gəlməmişdir. Çünki ölkəmizdə xalqın yaşam səviyyəsi minimum yaşam səviyyəsində aşağı olmasıdır.

Ölkələrin digər ölkələrə olan borclarının getdikcə artması da mənfi olan hallardan biridir. Bu halda ki, dünya ölkələrinin iqtisadiyyatında hasilat və idxal əməliyatlarının önəmli rolu vardır. Ölkədə idxalın yoxda hasilatın çox olması iqtisadiyyatın inkişaf etməsinə yol açacaqdır əks təqdirdə, idxalın çoxluğu iqtisadiyyatda mənfi hallara yol açacaqdır və bu hal olduğu halda idxalı çox olan ölkə hasilatı çox olan ölkədən asılı şəkildə qalacaqdır. Bu da öz növbəsində ölkəni müəyyən çətinliklərlə qarşı-qarşıya qoyacaqdır. Təhlükələrin qarşısını almaq üçünsə ixrac və idxal əməliyyatları düzgün aparılmalı, əvvəlcədən planlaşdırılmalı, ölkənin təbii sərvətlərdən sərfəli olaraq, istifadə edilməlidir. Misal üçün desək, Amerika Birləşmiş Ştatları təkcə dövlətdir ki, digər ölkələrlə əlaqə qurmadığı halda belə, özünün tələbatını özü ödəmək qabiliyyətindədir. Təbii ki, bu da Amerikanın təbii və qeyri-təbii olan resurlarının zənginliyindən irəli gəlir. Amma ki, Amerika Birləşmiş Ştatlarının inkişafı əsasən, xarici ölkələrlə qurduğu bağlantılarından olan gəlirlərlə əlaqədardır.

Respublikamızın iqtisadiyyatının inkişafına problem yaradacaq amillərdən əsas biri iqtisadiyyat kriminallaşması amilləridir. İqtisadiyyatın kriminallaşması vəziyyəti bəzi şəxslərin cinayət və ya qeyri-qanuni olan üsullarla təbii və ya qeyri-təbii sərvətlərin mənimsənilmiş halıdır. Başqa dillə desək korrupsiya halının geniş hallarından biridir. Dünya ölkələrində korrupsiya sistemi təbii ki, yolverilməzdir. Əks halda, nəticədə bu iqtisadiyyatın demək olarki mənimsənilmiş halıdır.

Azərbaycan Respublikasının iqtisadi təhlükələrinə təhdid yaradacaq olan faktorları gözdən keçirdikdə, təkcə qeyd olunan faktorlarla təhlükəsizliyi limitləndirmək təbii ki, olmaz. Ümumi olaraq, göstəricilərə nəzər yetirdikdə, sturuktur halında olan göstəricilərə ümumi yanaşma prinsipi əsas zəmin olaraq, nəzərə alınmışdır. Təbii ki, bu düzgündür. Bu səbəbdən ki, iqtisadi təhlükəsizliyə aid olan göstəricilər artıqdır və bunları tam olaraq qeyd etmək qeyri-mümkün haldır.

İqtisadi təhlükəsizlik quruluşunu müəyyən edən göstəricilər aşağıda qeyd olunanlardır:

Ümumi Daxili Məhsul qısaca desək, ÜDM beynəlxalq sistemdə əsas indikator olaraq, qəbul edilmişdir.  Ümumi Milli Məhsul anlayışı isə, ÜDM anlayışından sonra gəlir. Qeyd olunan terminlərin ikisidə iqtisadiyyatımızda olan xidmət və son əmtəənin həcimini müəyyənləşdirir.ÜDM və ÜMM baza ili və cari il üçün hesablana bilər. Aşağıda qeyd etdiyimiz cədvəldə adambaşına düşən Ümumi Daxili Məhsulun göstəriciləri qeyd olunmuşdur. Burada ilk olaraq, yaşam səviyyəsini (minimumum) artırmaqla, işsizlik səviyyəsinin səviyyəsini azaldmaqla, Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsini düşürmək mümkündür.

**Qrafik 2: Adambaşına düşən Ümumi daxili məhsul (ÜDM)**




**Mənbə:** Dövlət Statistika komitəsinin rəsmi saytı. https://www.stat.gov.az/

Qrafikdən də göründüyü kimi,2021-ci ilin yanvar-mart ayı üçün ölkənin Ümumi Daxili Məhsulunda əsas payı sənaye (40,5%) lə tutut. Ticarət,nəqliyyat sahələrinin təmiri və digər sahələr təqribi olaraq, 10-20% aralığındakı ÜDM-dəki payını göstərir. Ümumi Daxili Məhsulda ən az payı isə turistlərin ölkəyə yerləşdirilməsi, və ictimai iaşə tutur. Bunun da ən böyük səbəbi isə, bildiyimiz

kimi COVİD-19 pandemiyasıyla bağlı olan ictimai iaşə obyektlərinin bağlanması, turistlərin pandemiyayla əlaqədər digər ölkələrə olan səyahətlərinin dayandırılması ilə bağlıdır. Bu da öz təsirini gördüyümüz kimi həmin dövr özünü göstərir.

Ümumi Milli Məhsul isə hər hansı ölkədə olan və ölkənin daxilində istehsal olunan xidmətlər və əmtəələrin məcmusudur.Əgər ölkənin iqtisadi qapalı iqtisadiyyatdırsa, Ümumi Milli məhsul və Ümumi Daxili Məhəsul bir birinə bərabər anlayışı kimi qəbul olunur. Aşağıda bəzi ölkələrin Ümumi Milli Məhsulunun göstərciləri qeyd olunmuşdur:

**Cədvəl 1: Ölkələrin dünya üzrə ÜMM reytinqi (2018-2020)**

| Ölkələrin dünya üzrə ÜMM reytinqi | | | | |
|---|---|---|---|---|
| **Sıra** | **2018** | | **2019** | **2020** |
| **1** | ABŞ | $20,63 Trilyon | $20,63 Trilyon | $20.64 Trilyon |
| **2** | Çin | $13,37 Trilyon | $13,28 Trilyon | $13.18 Trilyon |
| **3** | Yaponiya | $5,20 Trilyon | $5,22 Trilyon | $5.23 Trilyon |
| **4** | Almaniya | $3,90 Trilyon | $3,91 Trilyon | $3.91 Trilyon |
| **5** | İngiltərə | $2,77 Trilyon | $2,77 Trilyon | $2.77 Trilyon |
| **6** | Fransa | $2,75 Trilyon | $2,75 Trilyon | $2.75 Trilyon |
| **7** | Hindistan | $2,71 Trilyon | $2,72 Trilyon | $2.73 Trilyon |
| **8** | İtaliya | $2,044 Trilyon | $2,047 Trilyon | $2.04 Trilyon |
| **9** | Braziliya | $1,90 Trilyon | $1,90 Trilyon | $1.90 Trilyon |
| **10** | Cənubi Koreya | $1,689 Trilyon | $1,68 Trilyon | $1.67 Trilyon |

**Mənbə:** Dövlət Statistika komitəsinin rəsmi saytı. https://www.stat.gov.az/, https://worldpopulationreview.com/country-rankings/gnp-by-country,
https://globalpeoservices.com/top-15-countries-by-gdp-in-2020/

Cədvəldən də gördüyünüz kimi ABŞ, Çin və Yaponiya Ümumi Milli Məhsulda öz reytinqini qoruyub saxlaya bilmişdir.

Nominal və Real Ümumi Daxili Məhsulun göstəricilərindən bəhs etdikdə, buradaki göstəricilər bir-birindən tamamilə olaraq fərqləndirilir. Nominal ÜDM

dedikdə, hazırki dövr üçün hasil olunmuş və hazırki dövrün kəmiyyəti ilə ölçülən xidmət və əmtəələrin dəyərini ifadə edir. Real Ümumi Daxili Məhsul isə hazırki dövr üçün istehsal edilən, lakin yekun müəyyənləşdirilmiş, xidmət və əmtəələrin dəyərini özündə əks etdirir.

Ümumi olaraq desək, 2020-ci ilədək iqtisadiyyatın davamlı şəkildə iqtisadiyyatının innovasiyasını deyə bilərik. 2020-ci ildə koronavirus COVİD-19 pandemiyası dünya ölkələrinin iqtisadiyyatına bir çox mənfi təsirləri olmuşdur. Ümumi olaraq desək isə, iqtisadiyyat daimi olaraq artımdadır.Gəlin, aşağıdakı bəzi statistik göstəriciləri nəzərdən keçirək.

Azərbaycan Respublikasının 2009-cu il üçün alınan malların bazarı tədqiqi onu ifadə edir ki, pərakəndə satış 11828,4 mln. AZN olub. Bu da 2008-ci ilin göstəricilərini faktiki olaraq 8.9% üstələyib. Hüquqi şəxslərin dövriyəəsi 15.52 %, sahibarlıq fəaliyyəti göstərən şəxslərin isə 84.47%-i hesabına bazarı müəyyənləşdirmişdir.

2013-cü il üçün Ümumi Daxili Məhsulun artım tempi 2.7% olmuş və kəmiyyət olaraq isə, 59 mlyrd manat təşkil etmişdir.

2020-ci il üçün neft və qaz sektoru üçün isə 33803,8 mln manat ÜDM istehsal edilmişdir.(Göstərici yanvar-iyun ayı üçün nəzərdə tutulub.) 2019-cu ilə nəzərən 2.9 % faiz azalma olmuşdur.

Qeyri neft və qaz sektoru üçün isə azalma 2.5% təşkil etmişdir.

ÜDM istehsalının 35,7 faizi sənaye, 11,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,6 faizi tikinti, 2,0 faizi informasiya və rabitə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 19,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,3 faizini təşkil etmişdir. Adambaşına düşən ÜDM səviyyəsi isə, 3393,69 AZN olmuşdur. Yuxarıda qeyd olunan göstəricilər 2020-ci il üçün səciyyəvidir (www.stat.gov.az).

Digər vacibi indikatorlardan biri də dünya ölkələri üçün xas olan yoxsulluq səviyyəsidir. Yoxsulluq səviyyəsindən bəhs edərkən, biz yoxsulluqun tanınmış

kimi müəyyən qisimdə xalqın təbəqəsinin mənəvi və maddi cəhətdən öz tələbatlarını ödəyə bilməməsi qeyd olunur.

Ümumi olaraq, dünya ölkələri üçün qəbul edilmiş minimumum 15 yaşını keçən əhalinin təbəqəsindən bəhs olunur. Ölkələrin iqtisadi indikatorlardan asılı olaraq, bu indikatorlar, bütün ölkələr üçün fərqli göstəricilərə malikdir.

### 1.3. İqtisadi təhlükəsizliyin hüquqi və meta-hüquqi paradiqmaları

İqtisadi təhlükəsizlik sistemi dünya ölkələrində daima diqqətin mərkəzində olmuşdur. Dünya ölkələri üçün hal-hazırda xas olan qlobal problemlərdən biri də iqtisadi təhlükəsizliyə təhdidlər problemidir. Bu təhdidlərlə bir sıra ölkələrin xüsusi olaraq yaratdığı orqanları məşğul olurlar. Həmçinin, qeyd olunan ölkələrdə təhlükəsizliyin inistututları da faktiki olaraq vardır. Dünya ölkələrinin hər birinin fərdi olaraq yürütdüyü öz strategiyası, siyasəti vardır. Yuxarıda qeyd edilmiş məsələlərin əsas həll olunmasında başlıca rolu normativlər və bəzi proqramlar yer tutur. Ölkənin iqtisadi təhlükəsizlik proqramının təmin edilməsində əsas rolu dövlətin və cəmiyyətin müəyyən yanaşmalırıyla deyə bilərik. Qısaca olaraq desək gəlin, iqtisadi təhlükəsizlik paradiqmalarına nəzər yetirək. :

1. əhalinin maddi durumunun zəifləməsi və bunun nəticəsində yaşayış minimumun artması
2. İqtisadiyyatda cinayət hallarının artması,korrupsiyanın genişlənməsi
3. İqtisadiyyatın sturkturunun mənfi doğru irəliləməsi
4. İqtisadiyyatda təksahəli model prinsipinə keçid və s. məqamlara toxunmaq mümkündür.

Dövlətdə iqtisadi təhlükəsizliyin təminatının verilməsi ilə bağlı olan beynəlmiləl əməkdaşlıq sazişlərinin olması vacib məsələlərdən əsas biridir. Bu əməkdaşlıq sazişləri dövlətin Avropa ölkələrinə olan inteqrasiyasını, regional GUAM təşkilatına (Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatı) və Cənubi Qafqaza ölkələrinin regional bağlantıların daha da gücləndirilməsini özündə ehtiva

edir.Avroatlantika TŞ və NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı)-yz üzv olan dövlətlərlə olan əməkdaşlıq sazişlərinin bağlanması Azərbaycan Respublikasının əsas məqsədlərindən biridir.Azərbaycan dövləti Azərbaycan-Ermənistan arasında olan münaqişələrinin əsas həllində ATƏT-in Minsk qrupunun da rolu omüəyyən qədər olmuşdur. Bununla yaşaı olaraq, Azərbaycanın suverenliyinin itirilməsinə yönəldilən, dövlətin milli təhlükəsizliyinə əsas təhdid yarada bilən beynəlxalq əməkdaşlıq sazişlərinin bağlanılmasına yol vermək qətiyyən hökumətin siyasətinə zidd prinsipdir.

Hazırki dövrümüzdə ölkəmizə başlıca iqtisadi təhdid yaradan amillər əsasən, ölkənin yerləşdiyi mövqedən, təbii resurslardan, hökümətin idarətemə sistemində bəhs edə bilərik. Azərbaycan Respublikası bildiyimiz kimi, neft-qaz ölkəsidir. Bu da öz növbəsində iqtisadiyyatın əsas invesitisasının bu sahəyə yönəldilməsinə səbəb olmuşdur. Bu demək olur ki, investisiyaların bütün qismi neft-qaz sahəsinə yatırıldı və təbii ki, bunun da mənfi təsirləri olmalıdır. Sonda isə, bu iqtisadiyyatın şəklinin kompleks hala düşməsini nəticələndi. Mənfi təsirlərin aradan qaldırılmasından dolayı Respublikamız, bir sıra tədbirlər görməyə çalışır.

Ölkəmizdə təhlükəsizlik orqanlarından əsas biri də Dövlət Təhlükəsizlik Xidmətidir. Dövlət Təhlükəsizlik Xidməti Azərbaycan Respublikası öz suverenliyini bərpa etdikdən dərhal sonra MTN-ni (Milli Təhlükəsizlik Nazirliyi) yaratmışdır. Milli Təhlükəsizlik Nazirliyi 14 dekabr 2015 tarixində cənab İlham Əliyevin sərəncamı ilə Dövlət Təhlükəsizlik Xidməti və AR-nın Xarici Kəşfiyyat Xidməti olaraq, iki yerə ayrılmışdır.

Dövlət Təhlükəsizlik Xidmətinin əsas fəaliyyəti məqsədyönlü, dolğun, tam və dəqiq şəkildə dövlətin tənzimlənməsi üçün uyğun tədbirləri görən dövlət orqanıdır.2004-cü ildə ulu öndər Heydər Əliyev “AR-nın Milli Təhlükəsizlik Nazirliyi haqqında Əsasnaməni” təsdiqləmişdir.

AR-nın sosial-iqtisadi sahələrinin dünyaya olan inteqrasiyası sonucunda Azərbaycan Respublikasının təhlükəsizlik sistemi beynəlxalq standartlara cavab verir.

İqtisadi Təhlükəsizliyin təminatı ölkədən bir çox nüanslar istəyir. Bunlardan əsas biriləri də müasir standrtalara cavab verən texnika-texnologiyalardan istifadə, İnformasiya Kommunikasiya Texnologiyalarından istifadədi şərtləndirir.

Ölkəmizdə olan iqtisadi təhlükəsizlik problemlərindən əsas biri olan ərzaq probleminin təhlükəsizliyi nüansına toxunmamaq qeyri-mümkündür. Onuda qeyd etmək mütləqdr ki, ölkənin ərzaq ehtiyatının təhlükəsizliyi ölkənin təhlükəsizlik modelinin vacib elementlərindən biridir.

Qeyd olunmuş məsələlərin əsas həlli yolu təcrübi olaraq, həyata keçirməkdən keçir. Ümumi olaraq, desək hər hansısa dövlətin iqtisadi təhlükəsizliyinə təhdid yaradan problemlərin həlli mexanizmi- onun müdafiə olunması üçün fərqli xüsusiyyəti olan, həmçinin təşilatı, iqtisadi. Digər hallarda isə hüquqi-paradiqmal xarakteri olan tədbirlərin sistemi kimi başa düşülür.

Respublikamız müstəqil olduqdan sonrakı illərdə, ilk dövrlər üçün iqtisadi təhlükəsizliyin quruluşu çox zəif quruluşda olmuşdur. Bu da ölkəni bəzi problemlərlə və təhdidlərlə qarşı-qarşıya qoydu.Buna əsas səbəb kimi hökumətin yanlış istiqamətdə idarə edilməsi ilə bağlı olmuşdur.Buda öz növsəində Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddialarının ortaya çıxmasına səbəb oldu. İstənilən ölkə üçün səciyyəvi olan iqtisadi təhlükəsizlik problemi üçün əsas həll ölkənin xarici-iqtisadi aləmlə bağlantılı olan və əlaqələri əsasan iqtisadi yönümdə qurulan sistemin qurulmasından ibarətdir.

Hamının bildiyi kimi ölkə iqtisadiyyatının əsas özəyiki kimi “pulu” qeyd etmək mümkündür. Bununla bağlı olaraq, ölkədə düzgün maliyyə-pul politikası yerinə yetirilməzsə, valyutanın, və maliyyə-pul münasibətlərinin tənzim ediləsini sektorunda vacibi tədbirlər görülməzsə bu ciddi şəkildə iqtisadi təhlükəsizliyin pozulmasına yol açacaqdır. Maliyyə-pul siyasətinin həyata keçirilməsi vəzifəsini Azərbaycan Respublikasının Mərkəzi Bankı yerinə yetirir. Mərkəzi Bank öz fəaliyyətini AR Konstitusiyası, Mərkəzi Bank haqqında olan Qanunla və digər AR Prezidentinin sərəncam və qanunları ilə həyata keçirir. Pul-кredit siyasətinin əsas amalı ölkədə olan sabitliyə və iqtisadi inkişafa nail olmaqdan ibarətdir. Mərkəzi

Bank bütün bunarlın həyata keçirilməsi üçün ölkənin sərt pul siyasətini və yumşaq pul siyasətini yerinə yetirir.

Sərt pul siyasəti pulun dəyərdən düşməsinə qarşı yönəldilən bir siyasətdir. Mərkəzi Bank milli valyutanı möhkəmləndirməkdən dolayı, ölkədəki faiz dərəcələrini artırır, özündə olan qiymətli kağızları satmağa başlayır, digər yerli banklara kredit ayrımlarını isə məhdudlaşdırmaqla bütün bu qeyd edilən məsələləri yerinə yetirməklə milli valyutanı mökhəmləndirilməsinə nail olur.

Yumşaq pul siyasəti isə tələbatın yüksəlməsinə və iqtisadi inkişafın stimullaşdırılması istiqamətdində aparılan bior siyasətdir. Yumşaq pul siyasəti Mərkəzi Bank digər banklara verdiyi faiz dərəcələrini endirir, qiymətli kağızları satmaq əvəzinə özünə cəlb edir, digər yerli banklara isə kerditləri artırır, milli valyutanın isə ucuzlaşması üçün vəziyyət yaradır.

Ölkə daxilində olan valyuta kontrolunu yerinə yetirən digər orqan AR-nın Dövlət Gömrük Komitəsidir (DGK). Dövlət Gömrük Komitəsi qeyri-rezident şəxslər və reizdentlər şəxslər tərəfindən milli valyutanın həmçinin xarici valyutanın sərvətlərinin AR-nın gömrük nəzarətini tənzim edir.

Azərbaycan Respublkasının Dövlət Gömrük Komitəsi iqtisadi təhlükəsizlikdə əsas amalı beuynəlmiləl ticarət bağlantıları vaxtı önə çxıan təhlükələrin, təhdidlərin, aradan qaldırılmasını həyata кeçirir. Azərbaycan Respublkasının Dövlət Gömrük Komitəsi ölkə daxilinə qyeri-qanuni şəkildə gətirilən malların, narkotik vasitələrin. silah-sursatın ölkəyə girişinin olmasına maneə yaradır, dövlətin iqtisadiyyatının inkişafına təhdid yaradacaq nüansları aradan qaldırır, xarici rəqabətqabiliiyətliliyin mənfi təsirlərindən qoruyur və buda təbii ki, iqtisadiyyatın inkişafına yol açır.

Müstəqilliyini yeni qazanan dövlətlər üçün iqtisadi təhlükəsizliyin təminatında dövlətin iqtisadi vəziyyətinin yaxşılaşdırılması mühüm rol oynayır. Təbii haldır ki, Respublikamız bəzi ölkələrin istifadə etdiyi iqtisadi təhlükəsizliyin təminatına təsir edəcək amilləri tətbiq edir. İqtisadi təhlükəsizliyin təminatına təsir edəcək mükim amillərdən bir neçəsi də işsizliyin 0-a endirilməsi, məşğulluğun maksimum

dərəcədə artırılması və s. nüansları qeyd edə bilərik. Bildiyimiz kimi, hər bir dövlətlərin əsas məqsədi ölkənin iqtisadiyyatının yüksəlməsinə dair proqamları hazırlmalıdır. Çağdaş dövrümüzdə ərzaq təhlükəsizliyi hər bir ölkə üçün əsas problemə çevrilmişdir. Hal-hazırda ərzaq təhlükəsiziliyi üzərində bəzi məsələlər öz həllini tapmaqdadır. Ama ki, bu o demək deyil ki, ərzaq təhlükəsizliyi aradan qaldırılıb. Dünya ölkələrində baş verən yoxsulluq, aclıq səviyyəsi təkcə problemi olan ölkələr üçün deyil, beynəlxalq səviyyədə iqtisadi təhlükəsizliyə təhdiddir. Bu da öz növəsində, sabitliyin qorunmamasına yol açır.

İqtisadi təhlükəsizliyin vacib elementlərindən əsas biri də Ekoloji təhlükəsizlikdir. Ekoloji təhükəsizlik bütöv olaraq, cəmiyyətin və ictimaiyyətin sadə həyat tərzi üçün vacib faydaların, ekoloji mühitə təhdid yarada biləcək faktorlardan qrunmasının formaya salınmasını özündə əks etdirir.

Tədqiqatlar ona dəlalət verir ki, bütöv olaraq, təhlükəsizliyin təmin edilməsi üçün ekoloji faktorlar aşağıdaki nüanslardır:

a) Təhlükəsizliyə olan təhdid səviyyəsi yüksək dərəcədə olann halların qarşısını öncədən alınması
b) Ətrafla bağlı olan təhlükəsizliyə təhdid səviiyəsinin aşağı salınması
c) Ekologiyayla bağlı olan təhlükələrin qarşısının alınması üçün beynəlxalq müavilələrin imzalanması və s.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNİN İQTİSADİ-HÜQUQİ MEXANİZMLƏRİ

## 2.1. Respublikamızda iqtisadi təhlükəsizliyin institusional təminatı

Təhlükəsizlik anlayaşının universallaşdırdığı təsirə başlıca olaraq, iqtisadi təhlükəsizlik, fərdlərin və fərqli sosial icmaların həyatlarının demək olarki bütün yönümdən əhatələyən olduqca geniş bir fikir olduğunu deyə bilərik.Araşdırdığımız tədqiqatın əvvəlki fəsillərində göstərildiyi kimi, iqtisadi təhlükəsizlik ölkənin varlığından tutmuş, mənfi yaşam səviyyəsinə qədər geniş bir mövzunu əhatələyə bilər.

İqtisadiyyatda təhlükəsizləşdirmə məsələləri, bu fəsildəki məqalələrin bəzilərində bu dövrə qədər önə sürülmüş olan bir suala cavab verilməsini tələb edir. Sosial həyatın yüz illərdir sürən bəzi indikatorlarının (yoxsulluq, savaş, və

münaqişələrdən irəli gələn iqtisadi təhdidlər hətta dövlətin müdaxiləsi ilə əlaqələndirilən və daha yaxşı bilinən bazar qeyri-sabitliyi) iqtisadi təhlükəsizlik olaraq, anlandırılan əhəmiyyəti nədir ? Təhlükəsizlik konsepsiyalarından istifadə edilməsinin, təhlükəsizləşdirilmə müddətinin nəticəsi olduğu bir yanaşmanı qəbul etmək, iqtisadi təhslükəsizlik baxımından daha da ətraflı bir açıqlama lazım olduğunu ortaya çıxarır.

Təhlükəsizlik anlayışının hər mənasında, təhdid, risk və sonradan alınacaq olan fövqəladə tədbirləri ortaya çıxarın bir fayda tapıla bilər. Qeyd olunan ümumi təməl təhlükəsizliyin konsepsiyaları koordinasiya edilə bilər.

İqtisadiyyat sektorundakı təhlükəsizlik məsələsi, özündə iki araşdırma növünü birləşdirir. Birinci araşdırmada fərqli şəxslərin (təşkilatların) bütün iqtisadi fəaliyyət sistemini (siyasi, sosial, iqtisadi və mədəni) kontekstini özündə cəmləşdirir.Açıq bir şəkildə desək, ilk araşdırmayla bağlantılı olan ikinci araşdırma növündə, bütün təhlil subyektləri ilə bağlı olan təhdid və həsasiyyətlə bağlıdır. İdeoloji və siyasi şərhlərə baxmayaraq, sistem səviyyəsində ümumi olaraq,

bazarların işindəki sabitliklə müəyyən edilir. Sistem düşüncəsindən alınan sabitlik möfhumu, təhlükəsizlik nəzəriyyəsində ən çox istifadə olunan və ən çox istismar edilən konsepsiya olduğu üçün diqqətlə istifadə edilməlidir. Barry Buzan, Ole Waever, Brandon deWilde iqtisadi təhlükəsizlik anlayışına belə bir tərif vermişdir:

*"Buradakı əsas məsələ dünya miqyasında olan pul münasibətlərinin, xidmətlərin və insanların yaşam səviyyəsinin sabitliyidir.İqtisadi dəyişiklər yalnızca bilinən sərhədlər daxiində baş verir. Buradakı bilinən sərhədlər iqtisadi cəhdlərin toplum olaraq, qəbul edilmiş və ya hesablanmış riskləri olaraq, yozula bilər".*

İqtisadi təhlükəsizlik dedikdə, fərdlərin də iqtisadi təhlükəsizliyindən bəhs etmək məqsədəuyğundur. İqtisadi təhükəsizlik haqqında bir digər tərif qrupu da müxtəlif sosial qrupların və fərdi şəxslərin yaşam prinsipləri və yoxsulluğun səviyyəsinin minimimuma endirilməsi ilə birbaşa bağlıdır. İqtisadi təhlükəsizliyin bu nüansları daimi sosial təhlükəsizlik və fərdlərin təhlükəsizlik anlayışına çox yaxın yanaşmadır. Qeyd olunan nüanslar, fərdi şəxslərin yaşam standartlarına vurğunu özündə əks etdirir.

İqtisadi təhlükəsizlik fərdi şəxslərə, ailələrə, toplumlara iqtisadi , siyasi, sosial, mədəni yanaşmalardan kifayət qədər uyğun olan qaynaqlarda təminatını verə biləcək, zəmanətli və dəyişməz, sabit olan bir yaşam səviyyəsini qarşıya qoyur.

Fərdlərin iqtisadi təhlükəsizliyinin ünsürlərindən əsas biri də iqtisadiyyatda fərdi ehtiyacların ödənilməsi kimi qiyətləndirilməsindən ibarətdir.

İqtisadi təhlükəsizlik 1994-cü ildə qəbul olunmuş Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramından istifadə edərək fərdi şəxslərin üçün müəyyənləşdirilmiş gəlirinin təminatı kimi tərif edilə bilər.

Qloballaşma termini ilə iqtisadi təhlükəsizlik terminləri bir- biri ilə sıx bağlıdır. Qloballaşma həyatın bütün sahələrinə təsiri ilə bağlı mühim fərqliliklər vardır. Qloballaşma xüsusi ilə inkişaf etməkdə olan ölkələr üçün xasdır.

## 2.2. Azərbaycanda iqtisadi təhlükəsizliyin normativ-hüquqi bazası

Hal-hazırki iqtisadi şəraitdən qeyri asılı olaraq, iqtisadi təhlükəsizlik bütün ölkələrin daimi şəkildə nəzarətində olmalıdır. Bəzi Avropa ölkələri üçün xas olan İqtisadiyyat Nazirliyinin tabeliyində olan bu problemli məsələlərlə bəzi dövlət qurumları ilgilənir. Həmçinin, qeyd olunmuş dövlətlərdə iqtisadi təhlükəsizliyin institutları mövcuddur. Həmçinin hər bir ölkənin iqtisadi təhlükəsizliyinin sosial-iqtisadi olan strategiyası vardır. Qeyd olunmuş problemlərin həllində əsas rolu normativlər və dövlətin proqramları başlıca rol oynayır. Burdan belə sual ortaya çıxırki, dövlətin iqtisadi təhlükəsizliyini təmin edən əsas metodlar hansılardır və necə nizamlanır? Və bunun əsas prinsipi nədir?

Cəmiyyət və ölkə səviyyəsində iqtisadi təhlükəsizliyə təhdidlər aşağıdakı hallarda ortaya çıxır:

- Təkrar istehsalın az olması;
- Əhalinin yaşam səviyyəsinin zəifləməsi və yoxsulluğun artması;
- İqtisadi kibercinayətin getdikcə yüksəlməsi;
- iqtisadiyyatda sahələrarası müvazinətin dağılması;
- İqtisadiyyat inkişafı üçün masir iqtisadi modelə keçilməsi ;

Hal-hazırki dövr üçün xas olan iqtisadi təhlükəsizliyə təhdidlərin əsas faktoru ölkənin olduğu ərazinin strateji mövqeyindən, iqtisadiyyatın strukturlarından, hökumətin idarəetmə sistemindən asılı olaraq yarana bilir. Bu halda ki, ölkənin neft yataqları, buraya başlıca olaraq, investiya yatırılmasına səbəb olmuşdur. Bu hal sonda özünü “Holland sindromu” olaraq nəticələndirə bildi. Bu ona gəlib çıxır ki, iqtisadiyyatın inkişafı neft və qaz sektoru ilə xaraketiz olundu. Nəticə olaraq, bu sonda ciddi problemləri ortaya çıxardı. Hal-hazırki dövr üçün ölkənin əsas məqsədi iqtisadi təhlükəsizliyə təhdidlərin yarada biləcəyi nöqsanların aradan qaldırılması üçün ciddi tədbirlərdir.

Azərbaycan Respublikasının suverenliyinin ilk dönəmində ölkə Ermənistan Respublikası tərəfindən çox ciddi şəkildə hərbi təhdidə məruz qaldı və bu da öz növbəsində iqtisadi təhlükəsizliyə təhdidin, qeyri-stabilliyin ümumilikdə desək, iqtisadiyyatın bütün sahələrinə öz mənfi təsirini göstərdi. Ama ki, buna rəğmən, Azərbaycan Respublikasının həmin dönəmindəki prezidenti Heydər Əliyev Azərbaycan Respublikasına qarşı olan bütün təhdidləri layiqincə dəf etməsinə müvəffəq olmuşdur.

Keçmiş prezidentimiz ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi ölkəmiz vaxti ilə çoxlu şəkildə olan sınaqlardan, təhdidlərdən üzü ağ çıxmış və daima inkişafda olmuşdur. Hal-hazırda ulu öndərimizin həyata keçirdiyi tədbirlərin davamında İlham Əliyev cənabları da, həmin uğurlu siyasəti yürütməkdədir.

Heydər Əliyev çox güclü siyasətçi və elm xadimi idi. Onun yürütdüyü müstəqil dövlət siyasəti ölkəmiz üçün əvəzedilməzdir.

Hər bir dövlət üçün xarakterik olan sosial, maliyyə, texnoloji və s. ölçünün ətraflı tətbiqi kimi ölkənin iqtisadi təhlükəsizliyi strategiyası hazırlanır və bunun əsasında həyata keçirilir.

Hər bir ölkə üçün xarakterik olan iqtisadi təhlükəsizliyin tənzimləmə metodu araşdırılarkən ölkənin başlıca olaraq, ərzaq təhlükəsizliyini aydın şəkildə analiz etmək vacbib şərtlərdən biridir. Onuda qeyd etmək lazımdır ki, qida təhlükəsizliyi iqtisadi təhlükəsizlikdə vacib nüanslardan biridir.

Ümumi olaraq desək, hər-hansı bir ölkənin iqtisadi təhlükəsizliyinin problemlərinin həlli mexanizmi – onun sapdırılması üçün fərqli xüsusiyyətlərə malik olan, həmçinin də iqtisadi, hüquqi təminat, və digər xarakterlerləri özündə bəhs edən tədbirlər sistemi müəyyənləşdirilir.

Ölkəmizin müstəqilliyi qazandığı ilk illərdə iqtisadi təhlükəsizliyin əsas formalarından biri olan ərzağın təhlükəsizliyi ölkəni çox pis durumlarla qarşı-qarşıya qoydu. Bunun əsas səbibi bildiyimiz kimi dövlətin idarəetmə prinsipinin düzgün qurulmaması və ermənilərin ölkəmizə qarşı yadelli basqınları səbəbi ilə olmuşdur.

Hər hansısa bir ölkə üçün təhlükəsizliyə təhdid müəmmasının həllində əsas istiqamət dövləti xaricilə əlaqəli olan və sosial-iqtisadi xarakter daşıyan kommunikiasiyaların rasional sisteminin yaradılmasından ibarətdir. Bu halda ki, dövlətin hazır xammal ixaracatçısından hasil ixracçısına dəyişilməsi, xariclə olan alverin az kəmiyyətdə dövlətlərdən asılı olmağın maksimum dərəcədə aradan qaldırılması iqtisadi təhlükəsizliyə təhdidin başlıca səbəblərindən biridir. Buna görə də, xariclə olan iqtisadi kommunikasiyanın heç bir müsabiqəçisi ölkəni özünə itaət etdirmək mümkünatına malik olmamalıdır.

İEÖ-lərin yaşam səviyyəsi, iqtisadi artımla müqayisədə büdcənin kəsrinin azaldılıb, aradan qaldırılması və iqtisadiyyatın gizli istiqamətdə məhdudlaşdırılması genişhəcmli əməliyyat göstərdikləri vəziyyətdə İEOÖ isə dövlətin əsas olan borcunun həll edilməsi, dünya iqtisadiyyatına ilkin addımların atılması, valyuta fondunun vücuda gətirilməsi, məlumat sürətinin zəiflədilməsi, işsizliyin maksimum dərəcədə minimuma endirilməsi xüsusi olaraq, nəzərdə saxlaması mütləqdir. Dünya ölkələrində mövcud olan işsizliyin minumum səviyyəyə endirilməsi, daimi məşğulluqun təminatı, iqtisadi təhlükəsizliyə təhdidlərin vacib amillərdən biri kimi qələmə verilir. Hər hansısa bir dövlət, həmçinin Azərbaycan da iqtisadiyyatın yüksəlişinə istiqamətlənmiş, iqtisadi yenidənqurma proqramını iqtisadi artıma müvafiq şəkildə, təhlükəsizliyə təhdid sahəsində mövcud olan durumları özündə birləşdirən göstəricilərə sahib olmalıdır.

Çağdaş dövrümüzdə ərzağın təhlükəsizliyi məsələsi dünyanın ölkələri üçün vacib önəmlilik kəsb edir. Hal-hazırki durumda aclıq, yoxsulluq səviyyəsinin dünya bölgüsündə uzunsürən vəziyyət kimi aradan qaldırılmasına rəğmən aclıq bəzi dövlətlərdə ümumi olan ərzaq məhsulunun yüksəlməsi vəziyyətində də baş verir.

Bu səbəbdən də ərzaq qıtlığı kimi yox, bütün əhali təbəqələrinin eyni səviyyədə ərzağı əldə etmək mümkünatının olmaması, digər sözlə söyləsək, onların yoxsulluqları, zəiflikləri ilə izah etmək mümkündür.

Aclıq təkcə qeyd olunan dövlətlər üçün deyil, həmçinin beynəlxalq səviyyədə da sabitliyin, sükutun dəyişməsinə ciddi təhdid yaradır. Hal-hazırda mövcud əngəllərə rəğmən, dövlətin aqrar sektoru və hazır-emal sahəsi geniş, artımlı inkişaf imkanına sahibdir. Bu da o deməkdir ki, qeyd olunan sahədə bizneslə məşğul olan hüuqi şəxs olmayan sahibkara AR-nın hökuməti əlverişli durumun yaradılması və hökumət səviyyəsində kömək göstərilməsi uyğundur.

İqtisadi təhlükəsizliyə təhdidin vacib tərkib hissələrindən biri "Ekoloji təhlükəsizlik" amilidir. Ekoloji təhlükəsizlik , bütov olaraq, cəmiyyət və inanın normal həyat tərzi üçün vacibi maraqlarının, ekoloji şərait və ekoloji şəraitə təsirlər hesabına yaranan təhlükəsizliyə təhdid parametrlərindən mühafizə mexanizminin formaya salınmasını özündə göstərir.

Ekoloji qanunvericiliyin quruluşu, dövlətin şəxsi konstitusiyası, uyğun fəaliyyətlə bağlı olan birbaşa qəbul olunmuş qaydalar, həmçinin dövlətin tərəfdaş çıxdığı başqa hüquq mənbəyi kimi qələmə verilən aktlardan, bəyanatlardan ibarətdir.

Tədqiqatlarımız onu göstərir ki, bütov olaraq, təhlükəsizliyə təhdidin vacib komponenti kimi ekoloji tədbirlər nəticə etibarilə aşağıdakı qeyd olunanlardır :

1. Bir dövlətin iqtisadi-sosial artımının strategiyasının formalaşdırılmasında və onun əsaslı şəkildə reallaşdırılmasında konkret ekoloji şəkildə etalonlarının müəyyən edilməsi;

2. Fərqli təsiri olan fəaliyyət sahələrinin ətrafla bağlı olan təhlükəliliyə təhdidin azaldılması və minimuma endirilməsi və s.

İctimaiyyətdə dövlətin iqtisadi təhlükəsizliyə təhdid indikatorunu ödəyəcək bir iqtisadi quruluşun xəlq edilməsi barəsində, başlıca olaraq, iqtisadiyyatın qərəzsiz uyğunluqlarının iddialarına sözsüz şəkildə əməl edilməlidir. Həmin qanunilik prinsipi iqtisadi yüksəlişin vacibi indikatoru olan Ümumi Daxili Məhsulun törənməsində birbaş rol oynayan iqtisadi sektorlarda işləyir. Başqa sözlə desək, ana iqtisadiyyatın həqiqi bölməsində, maliyyə-pul siyasətində, büdcə-

maliyyə sahəsində və digər sahələrdə eyni olan qaydalar öz zərurətlərini obyektiv olan surətdə təyin edirlər.

Qeyd olunan qayda-qanunların iş prinsiplərinin akseptinə bünövrəsi qoyulan fəaliyyət aqreqatlarının normal şəkildə işləməsindən dolayı onların hər birinin dövlətin ictimai-siyası yaşam səviyyəsinin mahiyyətini və tələbatını qəbul olma limitlərini, xüsusi olaraq, onların hər birinin əsasının tələb olunan nüanslarının düzgün müəyyən edilməsi mühim rol oynayır.

Rusiya akademiki B.Sençaqovun rəhbərliyi ilə aparılan elmi tədqiqatlarda sosial-iqtisadi təhlükəsizliklə bağlı maraq doğuran göstəricilər sistemini ümumiləşdirilmiş şəkildə 4 əsas qrup şəklində təsnişfləşdirməyi irəli sürülür :

1) milli mənafenin əsas komponentlərini özündə ehtiva edən və dövlətin çərçivəsində müəyyənləşdirilmiş makroiqtisadi cəhətdən indikatorlar;

2) AR İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş və dövlət üçün xas olan son hədd göstəriciləri kimi ehtiva olunan indikatorlar;

3) müvafiq şəkildə olan icra hakimiyyəti təmsilçiləri onların başlıca olaraq, müəyyənləşdirdikləri etdikləri indikatorlar;

4) müxtəlif regional üçün xas olan təhlükəsizliyə təhdid görkəmindən tədqiq edilən məsələlərlə bağlı indikatorlar. (Л.Абалкин. 2004, №12 32.)

Bildiyimiz kimi, iqitisadi təhlükəsizliyi təmin etməkdən dolayı ən önəmli tələb, dəyişilməz və dinamik iqtisadi yüksəlişi təmin etməkdən ibarətdir. Lakin, bunun üçün hesabatların demək olar ki, hamısı mühim vacibiyyat daşımır, bu indikatorların olduqca mühim əhəmiyyətli olanı iqtisadi təhdidin axırıncı levelə çatması üzrə olan hesablanan göstəricilərdir. Qeyd olunan vəziyyət AR-nın iqtisadiyyatının təhlükəsizliyə təhdidlərin yaranması, zərərli olan halların, xoşəgəlinməz şəraitin yaranmasını özündə göstərir

Həmçinin ölkədə iqtisadi təhlükəsizlik deyərkən başlıca toxunacağımız mövzulardan biri də ərzaq təhlükəsizliyidir. Ərzaq təhlükəsizliyinin prinsiplərinə toxunarkən, indikatorların ən aşağı hüdüd vacib nüansdır. Ümumi olaraq desək, ərzaq təhlükəsizliyinin mərtəbələrini ölkənin xarici və daxili mənfi effektlərlə

bağlantılarını araşdırmaq mütləqdir. Həmçinin bu halda internal amillərin effekt həddi eksternal amillərdən daha effektlidir. Hal-hazırki dövrümüzdə ərzaq təhlükəsizliyi bütün dövləttlərin maraq dairəsindədir.

Hal-hazırda Azərbaycanda ərzaq təhlükəsizliyi məsələsinin həlli yolu istiqamətində reallaşdırılan məsələlər sonucunda ölkəmizdə bütün maraq dairələri əhatələyən idarəetmə orqanlarının (MTN, KT, İqtisadiyyat Nazirliyi, DGK, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazilriyi və digər orqanlar) rəhbərliyinin əsas məqsədi bu strukturların rəhbərliyindən komissiyanın yaradılmasından ibarətdir.

Hazırki dövrümüzdə ərzaq təhlükəsizliyi problemi məsələləri yer kürəsində olan bütün dünya ölkələri üçün mühim rol oynayır. Ərzaq azlığının beynəlmiləl miqyasında ləğv olunmasına rəğmən çoxlu ölkələrdə ümumi ərzaq məhsulunun yüksəlişi olsa da aclıq səviyyəsi hələdə müəyyən səviyyədə mövcuddur.

Çağdaş dövrümüzdə iqtisadi təhlükəsizliyin kateqoriyalarından vacibi sferalarından biri də «Ekoloji təhlükəsizlik» problemidir. Ekoloji təhlükəsizlikdən bəhs etdikdə əhalinin yaşamına atmosferin pozulması yekununda təsir göstərə biləcək təhdidlərdən himayəsinin təminatı başa düşülməlidir.

Azərbaycan Respublikasının ekologiyasına vurulan mənfi təsirlərin sonuclarını ləğv etmə rolunu əsas olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi reallaşdırır.

Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyə təhdidin vacib nüanslarından əsası da dövlətdə olan “valyuta təhlükəsizliyi”dir. Valyuta təhlükəsizliyi barəsində AR Qanunu ölkədə “valyuta təhlükəsizliyini” reallaşdırmaq üçün qəbul olunmuş vacib qanun və qaydalardan biridir.

“İqtisadi təhlükəsizliyin səviyyəsinin qiymətləndirilməsinə müqayisəli göstəricilərin faktiki vəziyyəti və indiqatorlar nəzərə alınmaqla seçilmiş vaxt ərzində sosial-iqtisadi inkişafın proqnozu vasitəsilə nail olunur. İqtisadi fəaliyyəti analiz edərkən və bu istiqamətdə aparılan araşdırmaları ümumiləşdirərkən iqtisadi təhlükəsizlik problemlərinin həllinə hansı səviyyədə nail olunması göstəricisi

səviyyəsi müəyyənləşdirilir. Məhz bu baxımdan da iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi təsərrüfat fəaliyyətinin bütün sferalarını, o cümlədən də ölkə iqtisadiyyatı miqyasında reallaşdırıla bilinər."

**Qrafik 3: İqtisadi Fəaliyyət Növləri Təsnifatı üzrə orta aylıq nominal əməkhaqqı (2017-2018-2019-cu illər)**




| | İqtisadiyyat üzrə – cəmi (manat) | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıq… | Mədən çıxarma sənayesi (manat) | Emal sənayesi (manat) | Su təchizatı, tullantıların təmizləmnəs… | Tikinti (manat) | Ticarət, nəqliyyat vasitələrinin təmiri (manat) | Nəqliyyat və anbar təsərrüfatı (manat) | Turistlərin yerləşdirilməsi və ictimai iaşə… |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2019 | 635.1 | 371.4 | 3055.6 | 632.3 | 638.9 | 468.9 | 737.3 | 480.3 | 855.8 |
| 2018 | 544.6 | 281.1 | 2964.2 | 554.1 | 583.3 | 304.6 | 698.7 | 390.3 | 806.9 |
| 2017 | 528.5 | 261.5 | 3071.9 | 554 | 547.8 | 324.6 | 783.3 | 385.6 | 733.9 |

**Mənbə:** Dövlət Statistika komitəsinin rəsmi saytı, https://www.stat.gov.az/,https://azstat.org/statHtml/statHtml.do?orgId=994&tblId=DT_AB_016#

Yuxarıda qeyd etdiyimiz qrafikdən göründüyü kimi, 2017-ci ildə iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı əsasən, mədənçıxarma sənayesi üzrə (3071.9 manat), ən çox olmuşdur. Mədənçıxarma sənayesindən sonrakı yerləri ticarət, nəqliyyat vasitələrinin təmiri, turistlərin yerləşdirilməsi və ictimai iaşə obyektləri tutur. Lakin 2021-ci ilin ilk aylarından dünya ölkələrinə xas olan COVİD-19 pandemiyası bir çox sahələrə də öz mənfi təsirini göstərmişdir.

## 2.3. Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin müasir vəziyyətinin təhlili

İqtisadi təhlükəsizliyin halının vacibi dəyərləndirilməsi dövlətin milli iqtisadi təhlükəsizliyə təhdid məfhumunun elə bir açıqlamasına istinadlandılır ki, bu halda başlıca şəkildə iqtisadi-siyasi milli dövlətçiliyin faydalarına, həmçinin dövlətin mövcud olmasına əks şəkildə istiqamətləndirilən və başqa təhdidlərin kənarlaşdırılması, əks təqdirdə bitərəfləşdirilmək əsaslı şəkildə təmin edilir. Xarici, beləcə də xarici mühakimələrdən belə vacibi təhdidlər ictimaiyyət həyatının vacibi fərqli sahələrində, beləcə də onun başqa sahələrində, sferasında ortaya çıxa bilməsi mümkündür. İqtisadiyyatın təhlükəsizliyə təhdidlərin əsaslarının müəyyən edilməsi politikal konyuktorun həvəslərindən, məfkurəvi konsepsiyalarından, politikal spekulyasiyalardan izolyasiya olunmalıdır. Bu bölmədə bəhs olunan prioritetlərin vacibi iqtisadi-siyasi artımın, yüksəlişin bütünlüklə sferalarını bütöv şəkildə dövrlələnməsi o qədər də mühim deyil.

